HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 10 (852) ▪ 15 mart 2017 www.vergiler.az Qiymәti: 60 qәp.

# Prezident İlham Əliyev: *«Fransa ilə əlaqələrimiz mühüm əhəmiyyət kəsb edir»*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Fransa Respublikasına rəsmi səfərə gəlib. Dövlətimizin başçısını Fransanın yüksək vəzifəli rəsmi şəxsləri qarşılayıblar.



Martın 13-də Prezident İlham Əliyev Parisdə «Vivaction» şirkətinin prezidenti Rişar Mari ilə görüşüb. Görüşdə kibertəhlükəsizlik sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Sonra «SUEZ» qrupun baş direktorunun müavini, həmçinin MEDEF-in vitse-prezidenti xanım Marie-Ange Debon ilə görüşən Azərbaycan Prezidenti ölkəmiz ilə bu qurum arasında müəyyən sahələrdə əməkdaşlığın həyata keçirildiyi, bir sıra layihələr üzərində iş getdiyi bildirilib. Bakının yağış sularından təmizlənməsi və digər layihələrlə bağlı məsələlər müzakirə olunub, bu işlərin davam etdirilməsinin məqsədəuyğunluğu vurğulanıb.

Həmin gün Prezident İlham Əliyev Parisdə DCNS şirkətinin prezidenti Erve Qiyu ilə görüşüb. Görüşdə Azərbaycan ilə DCNS şirkəti arasında 2004-cü ildən əməkdaşlığın həyata keçirildiyi bildirilib. Müxtəlif dizaynlı və təyinatlı gəmilərin hazırlanması ilə bağlı bir sıra layihələrin reallaşdırıldığı və Bakı gəmiqayırma zavodu ilə əməkdaşlığın yaxşı perspektivlərinin olduğu vurğulanıb. «CIFAL» qrupun prezidenti Jil Remi ilə görüşdə isə ikitərəfli əməkdaşlığın perspektivləri, həmçinin hərbi-texniki sahədə gəmilərin hazırlanması ilə bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidenti «Credit Agricole SA» şirkətinin baş direktoru Ksavye Musca ilə də görüşüb. Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə olunub. Azərbaycanla bu şirkət arasında müxtəlif layihələrin uğurla maliyyələşdirildiyi və şirkətin «Cənub Qaz Dəhlizi» layihəsinin maliyyələşdirilməsində iştirak etdiyi, bununla bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə çox yaxşı əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Söhbət zamanı əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyi, qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatı sahəsində müxtəlif layihələrin reallaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Parisdə «Airbus» şirkətinin müdafiə və kosmik sistemlər üzrə icraçı vitse-prezidenti Nikola Şamüsi ilə görüşüb. Söhbət zamanı Azərbaycanla «Airbus» şirkəti arasında bir neçə ildir uğurlu əməkdaşlığın həyata keçirildiyi, yaxşı perspektivlərin olduğu, kosmik sahədə, xüsusilə yeni təyinatlı, daha yüksək nəticələr əldə etməyə imkan verən peyklərin hazırlanması ilə bağlı əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb. «Thales lnternational» şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə görüşən dövlətimizin başçısı şirkətlə iyirmi ildən çoxdur uğurlu əməkdaşlıq olduğunu xatırladıb, müxtəlif layihələrin həyata keçirilməsi ilə bağlı çox yaxşı nəticələrin əldə olunduğunu bildirib. «Azərbaycan Hava Yolları» QSC və Bakı Metropoliteni ilə müxtəlif layihələrin reallaşdırıldığı və Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı müəyyən işlərin görüləcəyi diqqətə çatdırılıb. «Total» şirkətinin prezidenti Patrik Puyane ilə görüşdə SOCAR ilə «Total» arasında əlaqələrin inkişafı, «Abşeron» yatağının işlənilməsi, «Ümid», «Babək» qaz-kondensat yataqları üzrə əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## Azərbaycanın işğal olunmuş ərazilərində - Dağlıq Qarabağ və ətraf rayonlarda Avropadan, təəssüf ki, o cümlədən Fransadan olan bəzi şirkətlərin fəaliyyəti ciddi narahatlıq doğurur

Səfər çərçivəsində Prezident İlham Əliyev Parisdə Fransa Şirkətlər Hərəkatının (MEDEF) biznes şurasının üzvləri ilə də görüşüb. Qurumun vitse-prezidenti xanım Mari-Anj Debon belə tədbirlərin Azərbaycan ilə Fransa şirkətləri arasında əlaqələrin inkişafında mühüm rol oynadığını, görüşdə onlarla şirkətin nümayəndələrinin təmsil olunduğunu vurğulayıb. Prezident İlham Əliyev yenidən MEDEF-də olmaqdan məmnunluğunu ifadə edərək ikitərəfli iqtisadi əməkdaşlığın təşviqində MEDEF-in çox vacib rol oynadığını və əlaqələrimizə töhfə verdiyini bildirib. İndiyədək bir çox layihələrin uğurla həyata keçirildiyini deyən dövlətimizin başçısı bu əməkdaşlıq çərçivəsində Azərbaycan iqtisadiyyatına xeyli investisiyaların yatırıldığını diqqətə çatdırıb: «Fransız şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Fransaya səfərimdən öncə əldə etdiyim məlumata görə, 50-dən çox fransız şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. İqtisadiyyatımıza yatırılan investisiyaların həcmi 2 milyard dollardan çoxdur. Bu sərmayələr əsasən enerji sektoruna qoyulmuşdur, lakin qeyri-neft sektoruna da bəzi sərmayələr yatırılır. Bu isə hazırkı mərhələdə bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın hökumət qurumları və fransız şirkətləri tərəfindən imzalanmış müqavilələrin dəyəri 2 milyard dollara yaxındır. Beləliklə, bu, ilk növbədə ölkəmizin potensialını nümayiş etdirir, bu, fransız biznes dairələrinin Azərbaycandakı fəaliyyətə marağının göstəricisidir. Eyni zamanda, bu, Azərbaycanda yerli və əcnəbi biznes qruplarına iş görmək, sərmayə yatırmaq və yaxşı podratçı olmaq üçün çox əlverişli şəraitin yaradıldığına dəlalət edir».

Dövlətimizin başçısı təhsil sahəsində yaxşı əməkdaşlığın olduğunu qeyd edib, bildirib ki, üç ildir ki, fəaliyyət göstərən Fransız Liseyi bu əməkdaşlığın yaxşı nümunəsidir: «Bundan sonra isə biz Fransız-Azərbaycan Universitetinin açılışını etdik. Bu, nəinki təkcə bizim təhsil potensialımızı gücləndirir, eyni zamanda, həmin təhsil ocaqlarında təhsil alan uşaqlar və gənc nəsil artıq, bir sözlə, bu iki ölkənin ictimai səfirlərinə çevrilirlər. Çünki onların həyatı Fransa ilə əməkdaşlığa bağlı olacaqdır».

Son illərdə ölkəmizdə dərin uğurlu iqtisadi islahatların aparıldığını bildirən Prezident İlham Əliyev neftdən asılılığın azaldılması, iqtisadiyyatın digər sektorlarının inkişafı ilə bağlı tədbirlərin görüldüyünü qeyd edib: «Biz Azərbaycanda çox əsaslı islahatlar paketini həyata keçirdik. Bu, əsasən ötən il oldu. Ötən il çox dərin iqtisadi islahatlar ili olmuşdur. Bu təşəbbüsə beynəlxalq maliyyə institutları çox güclü dəstək göstərmişdir. Bu, iqtisadiyyatımızın şaxələndirilməsinə aparan bir yoldur. Əlbəttə ki, biz islahatlarımızda inkişaf etmiş ölkələrin təcrübəsindən də istifadə edirik. Eyni zamanda, bizim çox yaxşı məsləhətçilərimiz var. Onlar bizə iqtisadiyyatımızın hər bir sektoru üçün strateji yol xəritələri hazırlamağa kömək edirlər. Azərbaycanda iqtisadi inkişaf sabitdir».

Söhbət zamanı Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini, Dağlıq Qarabağ və ətraf 7 rayonun Ermənistan tərəfindən işğal edildiyini, həmin ərazilərdə qanunsuz olaraq çalışan fransız şirkətlərinin olmasından təəssüfləndiyini diqqətə çatdırıb: «Mən münaqişə barədə danışarkən Azərbaycanın işğal olunmuş ərazilərində, Dağlıq Qarabağ və ətraf ərazilərdə Avropadan, həmçinin, təəssüf ki, Fransadan olan bəzi şirkətlərin fəaliyyəti ilə bağlı müəyyən narahatlığımı ifadə etmək istərdim. Çünki təkcə Dağlıq Qarabağ deyil, Dağlıq Qarabağ ətrafındakı 7 rayon da işğal altındadır. Bəzi şirkətlər bu ərazilərdə qanunsuz fəaliyyət göstərir ki, bu da qəbuledilməzdir. Bu, beynəlxalq hüququ, bizim qanunvericiliyimizi pozur və Azərbaycan bu məsələni beynəlxalq müstəvidə qaldırmaq üçün ciddi addımlar atır, həmçinin beynəlxalq məhkəmə institutlarına müraciət edir. Ona görə də mən bu narahatlığı ifadə etmək və torpaqlarımızda qanunsuz fəaliyyət göstərən şirkətləri bu fəaliyyətdən çəkinməyə çağırmaq istərdim. Bu fəaliyyət çoxlu gəlir gətirməyəcək, lakin çoxlu çətinliklər yarada bilər. Bu, ölkələrimiz arasındakı çox yaxşı, dost münasibətlərinə uyğun deyil. Mən başa düşürəm ki, bu şirkətlər bunu öz riskləri hesabına edirlər, lakin mənim borcum sadəcə onlara bundan çəkinməklə bağlı xəbərdarlıq etməkdir».

«Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətindən də danışan dövlətimizin başçısı Avropada həyata keçirilən bu ən böyük investisiya layihəsinin reallaşmasında Azərbaycanın lider rola malik olduğunu bildirib, bu layihənin istehlakçılar üçün yeni qaz mənbəyi olduğunu vurğulayıb. Avropa ilə Asiya arasında körpü rolunu oynayan Azərbaycanın yüklərin daşınmasında da mühüm mövqelərə malik olduğunu, bu məsələdə Azərbaycan-İran-Rusiya üçtərəfli formatının əhəmiyyətindən danışan Prezident İlham Əliyev Bakıda dəniz limanının da tikildiyini bildirib. «Bizim Fransa ilə əlaqələrimiz mühüm əhəmiyyət kəsb edir», - deyən Prezident İlham Əliyev Fransa prezidentləri Nikola Sarkozinin və Fransua Ollandın Bakıda səfərdə olduqlarını, biznes əlaqələrinin ikitərəfli münasibətlərimizdə mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Parisdə Fransa Respublikası Senatının sədri Jerar Larşe ilə görüşüb. Senatın binasının qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul və suvari dəstəsi düzülüb. Prezident İlham Əliyevi Senatın sədri Jerar Larşe qarşılayıb. Jerar Larşe Azərbaycan Prezidenti İlham Əliyevi Fransa Senatında görməkdən məmnun olduğunu deyib. O, belə səfərlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin, eləcə də parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğunu vurğulayıb, bir neçə gün əvvəl Bakıda Fransa Senatının bir qrup üzvünü qəbul etdiyini, dünən isə MEDEF-in üzvləri ilə çox səmərəli görüş keçirdiyini bildirib.

Jerar Larşe 2014-cü ildə Senatda xanım Mehriban Əliyeva ilə Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun sədri kimi görüşdüklərini xatırladıb, bu görüşün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, belə görüşlərin ölkələrimiz arasında münasibətlərin inkişafına güclü təkan verdiyini, Azərbaycan-Fransa əlaqələrinin strateji istiqamətdə inkişaf etdiyini bildirib.

Söhbət zamanı Senatın sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlərlə maraqlanıb. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın qəti mövqeyini diqqətə çatdırıb, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü qeyd edib. Dövlətimizin başçısı Azərbaycanda olan fransalı senatorların Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər etdiklərini və kəndin ermənilər tərəfindən necə dağıdılmasının şahidi olduqlarını vurğulayıb. Azərbaycan Prezidenti gərginliyin mövcudluğunun regiona ziyan vurduğunu bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Səudiyyə Ərəbistanı Azərbaycanla dostluq münasibətinə sadiqdir

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da Səudiyyə Ərəbistanı Krallığının körfəz məsələləri üzrə dövlət naziri Tamer Al-Sabhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli əlaqələrin çox yaxşı səviyyədə olduğunu, ölkələrimizin bir çox istiqamətlərdə uğurlu əməkdaşlıq etdiyini bildirib. Bu əməkdaşlığın beynəlxalq təşkilatlar çərçivəsində də yaxşı səviyyədə olduğunu xatırladan Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altında olması ilə əlaqədar Səudiyyə Ərəbistanının Ermənistanla heç bir diplomatik əlaqə saxlamadığını, qardaşlıq mövqeyi nümayiş etdirdiyinə görə bir daha təşəkkürünü ifadə edib.

Dövlət naziri Tamer Al-Sabha İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Nayif bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanı Krallığının mövqeyinin dəyişməz olduğunu, ölkəsinin Azərbaycan ilə bütün sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

# Əməkdaşlığın perspektivləri müzakirə olunub

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da Fransa Respublikası Senatının Fransa-Qafqaz Dostluq Qrupunun sədri Andre Reyşarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Andre Reyşarın Fransa senatorlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərinin önəmini qeyd edən dövlətimizin başçısı səfərin qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı fürsət yaradacağını vurğulayıb. Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığımızın möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub. Söhbət zamanı Azərbaycan ilə Fransa arasında energetika, ekologiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ətrafında da fikir mübadiləsi aparılıb.

# Dövlət başçısı ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib

Prezident İlham Əliyev martın 11-də ATƏT-in Minsk qrupunun həmsədrləri Riçard Hoqlandı, İqor Popovu, Stefan Viskontini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Rusiyalı həmsədr İqor Popov bildirib ki, Minsk qrupunun tərkibində ABŞ və Fransadan yeni həmsədrlərin olmasına baxmayaraq, təmsil etdikləri ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair mövqeləri dəyişməz qalır və həmsədr ölkələr tezliklə əsaslı sülh danışıqlarının başlanmasını istəyirlər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## BU NÖMRƏMİZDƏ

«ŞƏFFAFLIĞA DOĞRU BİRLİKDƏ»... 2

AZƏRBAYCANDA VERGİ YÜKÜ 4

NAĞDSIZ HESABLAŞMALARIN HƏCMİNİN ARTIRILMASI ŞƏFFAFLIĞIN ƏSAS ŞƏRTLƏRİNDƏN BİRİDİR 5

*QARİ LİTMAN:* AZƏRBAYCANDA XARİCİ SƏRMAYƏÇİLƏR ÜÇÜN SƏMƏRƏLİ VERGİ MÜHİTİ MÖVCUDDUR 6

# «Şəffaflığa doğru birlikdə»...

**Mart ayının 10-da Vergilər Nazirliyi və Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») birgə təşkilatçılığı ilə «Şəffaflığa doğru birlikdə» mövzusunda vergi konfransı keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri, «AmCham»ın və xarici ölkələrin diplomatik korpuslarının nümayəndələri, ölkədə fəaliyyət göstərən yerli və əcnəbi iş adamları, eləcə də KİV əməkdaşları iştirak etmişlər.**




*Konfransı giriş sözü ilə açan Azərbaycanda Amerika Ticarət Palatasının icraçı direktoru Natəvan Məmmədova* təşkilatın dövlət qurumları ilə apardığı konstruktiv dialoqdan məmnunluğunu bildirmiş, bu tədbirin də görülən işlərin növbəti bariz nümunəsi olduğunu qeyd etmişdir. Onun sözlərinə görə, 250-dən artıq şirkəti özündə birləşdirən və ölkəyə yatırılan xarici investisiyaların 80%-ni əhatə edən «AmCam» Azərbaycan iqtisadiyyatının bütün bölmələrində fəaliyyət göstərən şirkətlərlə sıx əlaqələr qurur, birgə layihələrin təşkili və həyata keçirilməsində fəal rol oynayır, özəl sektorun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı rəy və təkliflərlə çıxış edir. İqtisadi qanunvericiliyin, o cümlədən vergi islahatlarının həyata keçirilməsində təşkilatın irəli sürdüyü təkliflərin nəzərə alınması qarşılıqlı partnyorluq platformasının yaranmasından xəbər verir. Bu tərəfdaşlıq dövlət-biznes münasibətlərində körpü rolunu oynayır. Belə tədbirlərin keçirilməsi isə vergi orqanı ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsinə, yüksək vergi mədəniyyətinin formalaşdırılmasına müsbət təsir göstərir.

### Azərbaycanın vergi sistemi iqtisadiyyatın lokomotivinə çevrilib

*Tədbirdə iştirak edən Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə* bildirmişdir ki, Azərbaycan iqtisadiyyatında və vergi sistemində aparılan mühüm islahatlar nəticəsində ölkə iqtisadiyyatında son 10 ildə köklü dəyişikliklər baş verib. Əldə olunmuş iqtisadi uğurlarda vergi siyasətinin çox əhəmiyyətli rolu olub: «Vergilərin həcminin ilbəil artması ölkəmizdə güclü maliyyə bazasının formalaşmasına şərait yaradır. Vergi sisteminin davamlı olaraq təkmilləşdirilməsi və qabaqcıl dünya standartlarına cavab verməsi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın vergi sistemi artıq iqtisadiyyatımızın lokomotivinə çevrilmişdir».

Qeyd olunmuşdur ki, Azərbaycan 130-dan artıq ölkə ilə həyata keçirdiyi iqtisadi əməkdaşlıq layihələri çərçivəsində qarşılıqlı sərmayələrin qoyulmasında səmərəli vergi siyasəti mühüm əhəmiyyət kəsb edir. Vergi qanunvericiliyinə edilən dəyişikliklər barədə danışan Z.Səmədzadə vurğulamışdır ki, 2017-ci il yanvarın 1-dən qüvvəyə minən yeni əlavə və dəyişikliklər ölkənin müasir iqtisadi çağırışlarından irəli gələn tələbləri özündə əks etdirir: «Məcəllədə vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi uçotunun tənzimlənməsi və uçot sisteminin şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması ilə bağlı çox mühüm müddəalar yer alıb. Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin əsas mahiyyəti ölkədə biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın fəaliyyətinin stimullaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulması ilə bağlıdır. Dövlətin yaratdığı bu əlverişli imkanlar kiçik və orta sahibkarlığa daha geniş meydan verir. Aparılan islahatlar ölkədə biznes fəallığının, sahibkarlıq subyektlərinin sayının və iqtisadiyyatın qeyri-neft sektorundan daxil olan vergilərin artmasına səbəb olacaq».

Milli Məclisin komitə sədri bildirmişdir ki, nağdsız ödənişlərin inkişaf etdirilməsi və uçot sisteminin təkmilləşdirilməsi ilə bağlı yeni qaydaların qüvvəyə minməsi ölkədə şəffaflığa şərait yaratmaqla yanaşı, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəlməsi baxımından mühüm əhəmiyyət kəsb edir, respublikamızın beynəlxalq imicinin yüksəlməsinə təkan verir. Düzgün uçot Azərbaycanın bir sıra makroiqtisadi göstəricilərinin beynəlxalq səviyyədə yaxşılaşmasında müsbət rol oynayır.

### Vergilər Nazirliyi sahibkarlarla şəffaf tərəfdaşlıq münasibətləri qurur

*Vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov* tədbir iştirakçılarını salamlayaraq Azərbaycan iqtisadiyyatının inkişafına verdikləri töhfələrə görə onlara təşəkkürünü bildirmiş, qeyd etmişdir ki, Vergilər Nazirliyi vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsində, vergi ödəyicilərinə yeni xidmətlərin göstərilməsində, bütövlükdə biznes mühitinin daha da yaxşılaşdırılmasında sahibkarların ictimai təşkilatları ilə müxtəlif müzakirələrin keçirilməsinə böyük önəm verir. Qanunvericiliyə dəyişikliklər edilərkən nazirlik ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının rəylərini nəzərə almağa, hər bir təklifə diqqətlə yanaşmağa çalışır.



Nazir «AmCham»la birlikdə keçirilən vergi konfranslarının artıq ənənəyə çevrildiyini vurğulayaraq, bu görüşlərin vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsində və vergi ödəyicilərinin vergi öhdəliklərinə əməletmə səviyyəsinin daha da yüksəldilməsində müstəsna rol oynadığını, təşkilatla Vergilər Nazirliyinin münasibətlərinin səmərəli tərəfdaşlıq prinsiplərinə əsaslandığını bildirmişdir. «Şəffaflığa doğru birlikdə» vergi konfransının devizinin müasir çağırışlara söykəndiyini vurğulayan Fazil Məmmədov Vergilər Nazirliyinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesində sahibkarlıq subyektləri ilə birlikdə şəffaf tərəfdaşlıq münasibətlərinin qurulmasına xüsusi diqqət yetirildiyini nəzərə çatdırmışdır.

Vergilər naziri vergi orqanlarında inzibatçılığın təkmilləşdirilməsi və təşkilati strukturun transformasiyası istiqamətində aparılan islahatlarla bağlı məlumat verərək bildirmişdir ki, yeni vergi sisteminin inzibatçılığı iki mühüm prinsipə söykənən müasir baxış bucağı üzərində qurulub. Bunlardan birincisi və ən önəmlisi fərdi yanaşmadır: «Yeni dönəmdə vergi administrasiyasının ilkin vəzifəsi hər kateqoriya vergi ödəyicisinə ona uyğun yanaşmalar formalaşdırmaqdan ibarətdir. Burada əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrlə iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı təmin etmək, fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir». Digər mühüm prinsipin isə sahibkarlıq subyektləri ilə partnyorluq münasibətlərinin qurulması və dərinləşdirilməsi olduğunu deyən F.Məmmədov qeyd etmişdir ki, vergi orqanları vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin qurulmasına artıq bir neçə ildir başlasa da, yeni yanaşmada bu münasibətlərin konkret əsaslara keçirilməsi və dərinləşdirilməsi, vergi ödəyicilərinin öhdəliklərinin dəqiqləşdirilməsi, onlara müasir və innovativ xidmətlərin təqdim edilməsi əsas götürülmüşdür.

## Əsas məqsəd hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı, fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir

Vergilər naziri Azərbaycanda vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulması istiqamətində siyasətin bundan sonra da davam etdiriləcəyini, Vergilər Nazirliyinin biznes qurumları, xüsusilə də sahibkarları təmsil edən ictimai təşkilatlar və birliklərlə partnyorluq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi və daha da dərinləşdirilməsində maraqlı tərəf olduğunu və bu istiqamətdə öz səylərini əsirgəməyəcəyini diqqətə çatdırmışdır.

### Şəffaflıq nə qədər yüksək olarsa, Azərbaycan iqtisadiyyatı o qədər qüdrətli olar...

*«AmCham»ın prezidenti Nuran Kərimov* Vergilər Nazirliyi ilə əməkdaşlığın səviyyəsindən məmnun olduğunu bildirərək, rəhbərlik etdiyi təşkilatın ölkədə biznes mühitini yaxşılaşdıran mükəmməl vergi qanunvericiliyinin işlənib hazırlanmasında maraqlı olduğunu vurğulamışdır. Bildirmişdir ki, Vergilər Nazirliyi ilə əməkdaşlığın nəticəsi olaraq qurum tərəfindən artıq 6-cı ildir ki, vergi partnyorluğu mövzusunda konfrans təşkil edilir, vergitutma sahəsində aktual olan mövzular üzrə müzakirələr aparılır, konkret təkliflər irəli sürülür: «Vergi sisteminin liberallaşdırılması, inzibatçılığın təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması məqsədilə qanunvericiliyə hər hansı dəyişikliklər edilərkən Vergilər Nazirliyi ölkədə fəaliyyət göstərən yerli və xarici biznes strukturlarının, onların ictimai təşkilatlarının rəyini nəzərə almaqla, hər bir təklifə diqqətlə yanaşır: «Tərəflər arasında qurulmuş sıx və açıq dialoq, geniş müzakirələr şəraitində əldə edilən ortaq yanaşmalar qanunvericiliyin təkmilləşdirilməsinə müsbət təsirini göstərir, azad biznesə dəstəyin daha da yaxşılaşmasına əlverişli imkan yaradır. Bu cür təşəbbüskar ictimai qurumların fəaliyyəti sahibkarlıq subyektləri ilə vergi orqanları arasında münasibətlərin daha da dərinləşməsinə yardım edir, tərəflər arasında inam və etimadı möhkəmləndirir».

N.Kərimov qeyd etmişdir ki, Azərbaycanda vergi sisteminin müasir və şəffaf olmasını ölkədə fəaliyyət göstərən biznes qurumlarının bütün üzvləri müşahidə edir. Sahibkarlar üçün təmin edilmiş əlverişli vergi rejimi özəl biznesin və qeyri-neft sektorunun daha da inkişafına təkan verəcək, şəffaflığın artmasına səbəb olacaq: «Şəffaflıq nə qədər yüksək olarsa, Azərbaycan iqtisadiyyatı o qədər qüdrətli olar. Şəffaflığın yüksəlməsi həm də dövlət büdcəsinə daha çox vergilərin daxil olması deməkdir».

### Yeni iqtisadi inkişaf modeli vergi islahatlarını labüdləşdirir

*«BP» şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Astanbəylinin* moderatorluğu ilə «Vergi xidmətlərinin islahatlarda rolu» mövzusunda keçirilən birinci sessiyada vergi inzibatçılığında aparılan islahatlar, nağdsız ödənişlərin stimullaşdırılması, könüllü əməletmə, vergi mədəniyyəti, vergi ödəyicilərinə xidmət vasitələri və digər mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

*Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov* «Vergi xidməti: islahatlar və hədəflər» mövzusunda təqdimatla çıxış edərək bildirmişdir ki, vergi xidməti büdcə gəlirləri üzrə fiskal funksiya ilə yanaşı, sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməklə əlverişli iqtisadi mühitin formalaşmasında tənzimləyici rola malikdir. Yeni hazırlanan iqtisadi inkişaf modeli adekvat vergi islahatlarının həyata keçirilməsini zəruri edir. İnkişaf modeli milli iqtisadiyyatın yol xəritələrində öz əksini tapmışdır. Yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı əhatə edir.

N.Şirinov müasir iqtisadi çağırışlara uyğun olaraq vergi sistemində aparılan islahatların əsas istiqamətlərinə toxunaraq qeyd etmişdir ki, islahatların əsas komponentləri vergi qanunvericiliyinin liberallaşdırılması, inzibatçılığın təkmilləşdirilməsi və vergi ödəyicilərinə yönəlmiş struktur dəyişikliyidir. Vergi qanunvericiliyinin liberallaşdırılması aşağıdakıları əhatə edir:

- Transfert qiymətlərinə nəzarət mexanizmlərinin qurulması;
- Elektron ticarət üzərində vergi nəzarəti mexanizmlərinin yaradılması;
- Uçotun dürüstlüyünün və şəffaflığının təmin olunması;
- Nağdsız əməliyyatların həcminin artırılması;
- Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi;
- «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi;
- Vergi güzəştləri və azadolmalarından iqtisadi tənzimləmə aləti kimi istifadə olunması və s.

Natiq Şirinov vergi inzibatçılığının təkmilləşdirilməsində risklərin idarə edilməsi alətinin tətbiqi, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, kameral vergi yoxlamalarının müddətinin 30 iş günü ilə məhdudlaşdırılması, «Tax free» sisteminin tətbiqi, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması sisteminin və intizamlı vergi ödəyicilərinə «yaşıl dəhliz» prinsipinin tətbiqi kimi məsələləri də iştirakçıların diqqətə çatdırmışdır. Bildirmişdir ki, vergi ödəyicilərinə yönəlmiş administrasiyaya keçid dövriyyə intervalları nəzərə alınmaqla fərdi yanaşma və sahibkarlıq subyektləri ilə partnyorluq münasibətlərinin qurulması və dərinləşdirilməsi prinsipindən ibarətdir. Dövriyyə intervalları ilə vergi inzibatçılığının təşkilindən danışan N.Şirinov bu bölgünün məqsədinin vergi inzibatçılığını diferensiallaşdırmaqla daha səmərəli, çevik, ədalətli və şəffaf vergi nəzarətinin və vergi xidmətinin formalaşdırılmasına şərait yaratmaq olduğunu qeyd etmişdir. Bölgü iri vergi ödəyiciləri üzrə işlərin daha keyfiyyətlə, orta sahibkarlar üzrə partnyorluq münasibətləri çərçivəsində və kiçik sahibkarlar üzrə daha sadə və optimal vergi öhdəliyinin formalaşdırılmasıdır: «Yeni iqtisadi inkişaf modelində kiçik və orta sahibkarlığın (KOS) rolu mühüm əhəmiyyət kəsb edir. 2020-ci ilədək strateji baxış KOS-un ÜDM və məşğulluqdakı payının artırılması, ÜDM-də xüsusi çəkisinin 15%, məşğulluqda isə 20%-dən yuxarı olmasıdır. 2025-ci ildən sonrakı dövr üçün hədəf ÜDM-in ən azı 60%-nin KOS hesabına təmin edilməsidir. Yeni administrativ yanaşmada KOS subyektlərinə münasibət yoxlamaların risk dərəcəsi əsasında aparılması, sayının optimallaşdırılması, elektron yoxlama metodunun tətbiqi, əmək haqlarının və dövriyyələrin leqallaşdırılmasının təşviq edilməsi və verginin stimullaşdırıcı rolunun önə çəkilməsindən ibarətdir».

N.Şirinov təşkilati strukturun transformasiyası barədə də danışmış, yeni təşkilati struktura uyğun departament və mərkəzlərin yaradıldığını, direktorluq institutunun işlərin, funksiyaların icrasında cavabdehlik və məsuliyyəti artırmaqla yanaşı, idarəetmə sistemində horizontal və vertikal nəzarətin effektiv şəkildə həyata keçirilməsinə imkan verəcəyini, departamentlərin daha səmərəli, düzgün və rasional idarə olunmasını təmin edəcəyini diqqətə çatdırmışdır.

### Aparılan islahatlar sahibkarların işini xeyli yüngülləşdirir

*«Azərsun Holdinq» şirkətinin baş icraçı direktoru Savaş Uzan* «Şəffaf vergi uçotu» mövzusunda çıxış edərək vergi sistemində aparılan islahatların, elektron xidmətlərin sahibkarların işini yüngülləşdirdiyini bildirmişdir: «Yeni elektron xidmətlər bizə xeyli rahatlıq verir. Aprelin 1-dən tətbiq olunacaq elektron qaimə-faktura işlərimizi daha da asanlaşdıracaq. Biz Vergilər Nazirliyi ilə əməkdaşlığa böyük önəm veririk, vergi öhdəliklərimizi vaxtında yerinə yetiririk. Hazırda ixracın təşviqi ilə bağlı aparılan səmərəli siyasətə uyğun olaraq, bu sahədə fəal iştirak etmək niyyətindəyik».

S.Uzan vergi qanunverciliyinə edilmiş mühüm dəyişiklikləri müsbət dəyərləndirərək növbəti addımlar kimi bəzi məsələlərin də nəzərə alınmasını təklif etmişdir. O, istehsal üçün ölkəyə gətirilən xammal və materialların vergidən azad edilməsi, ölkədə istehsal edilən malların rəqabətədavamlılığı üçün eyni adda idxal olunan hazır məhsullara vergi tətbiq edilməsi, xüsusilə digər məhsullarla müqayisədə kənd təsərüfatı mallarına tətbiq olunan ƏDV üzrə vergilərin differensiallaşdırılmasını məqsədəuyğun hesab etmişdir.

## İndiyədək vergi sisteminin təkmilləşdirilməsi və qabaqcıl dünya standartlarına cavab verməsi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir

Sahibkar qanunvericiliyə edilmiş dəyişikliklərin qüvvəyə minməzdən əvvəl öz işlərini buna uyğunlaşdırmaq üçün onlara 2-3 ay vaxt verilməsinin vacibliyini vurğulamış, gələcəkdə belə halların nəzərə alınmasını xahiş etmişdir.

S.Uzan hazırda ikili mühasibatın tam aradan qaldırılması və şəffaflığın təmin olunması istiqamətində görülən işləri müsbət qiymətləndirmiş, əməkhaqqı ilə bağlı sosial vergi yükünün azaldılmasının nəzərə alınmasını da vacib məsələ kimi diqqətə çatdırmışdır.

Davamı 3-cü səhifədə

# «Şəffaflığa doğru birlikdə»...

Əvvəli 2-ci səhifədə

***«Deloitte & Touche» MMC-nin vergi üzrə partnyoru Emil Qarayev*** bildirmişdir ki, vergi ödəyiciləri tərəfindən şəffaf uçotun təmin edilməsi hökumət tərəfindən həyata keçirilən vergi siyasəti ilə birbaşa bağlıdır: «Şəffaf uçotun təmin edilməsində əsas faktorlardan biri yaradılan və təkmilləşdirilən normativ bazanın təcrübədə hər kəsə münasibətdə tətbiqidir. Şəffaf uçotun mövcud olması sahibkarın özü üçün bir sıra üstünlüklər yaradır. Bu, idarəetmədə asanlıq, ucuz maliyyələşmə, vəzifə saxtakarlıqlarının qarşısının alınması, cəmiyyət tərəfindən müsbət qarşılanma, yüksək reputasiya və daha yüksək səviyyəli kadrların cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Vergi orqanları üçün şəffaf uçotun üstünlükləri isə resurslara qənaət, daha yaxşı nəzarət, vergi ödəyiciləri ilə qarşılıqlı etibarın artması və ödəyicilərə göstərilən xidmətin yaxşılaşdırılmasını əhatə edir».

Qeyd olunmuşdur ki, şəffaf uçotun təmin edilməsi zamanı inzibati metodlarla yanaşı, stimullaşdırıcı vasitələrin tətbiqinə yer verilməsi də məqsədəuyğundur.

### Nağdsız ödənişlərlə bağlı strateji yol xəritəsi hazırlanacaq

***«MasterCard» şirkətinin ölkə üzrə meneceri Alper Metic*** «Nağdsız ödənişlər və onun faydaları» mövzusunda çıxış edərək, 210 ölkədə fəaliyyət göstərən şirkətin ana şüarının nağdsız ödənişləri artırmaqdan ibarət olduğunu və bu məqsədlə 60-dan artıq dövlətdə 1000-ə yaxın proqramın həyata keçirildiyini vurğulamışdır: «Apardığımız təhlillər göstərir ki, nağd ödənişlər hələ də dövriyyədə qalır: bazarda ümumi çəkisi 60%-dir, nağdsız ödənişlərin geniş yayılması müxtəlif tərəflərin birgə işi sayəsində mümkündür. Burada bankların üzərinə daha çox iş düşür».

Onun sözlərinə görə, nağdsız ödənişlər iqtisadiyyatda canlanma yaradan, iqtisadi aktivliyə stimul verən əsas vasitələrdən biridir: «Proqnozlarımıza görə, 2018-ci ildə mobil ödəmələr dünyada pərakəndə ticarətin 30%-ni təşkil edəcək, 2020-ci ildə nağdsız ödənişlər dünya bazarında 30% paya sahib olacaq. «MasterCard»ın müxtəlif ölkələrdə apardığı təhlillər onu deməyə əsas verir ki, nağd pul dövriyyəsi dövlət xərclərini bir neçə dəfə artırır. Nağdsız ödənişlər qənaət rejiminə şərait yaradan ən mükəmməl vasitələrdən biridir. Məsələn, Türkiyədə ödənişlər 3 il boyunca nağdsız aparılsa, qənaət nəticəsində əldə edilən vəsait hesabına 10 Bosfor körpüsü, 538 xəstəxana, 11 dəmir yolu inşa etmək olar». Qeyd olunmuşdur ki, nağdsız dövriyyə iqtisadi effektivliyi təmin etməklə yanaşı, ÜDM-in 1,7-3,6% artmasına səbəb olur. Məsələn, Rusiyada son illərdə kart ödənişləri bazarının 10% artması sayəsində iqtisadiyyatda 1% artım baş verib. Ümumilikdə, nağdsız ödənişlərin təmin olunması dünya üzrə 30 milyon iş yerinin yaradılması deməkdir.

«MasterCard»ın meneceri şirkətin Azərbaycanda Mərkəzi Bankla birgə «Nağdsız cəmiyyət» layihəsi icra etdiyini, layihə başa çatdıqdan sonra nağdsız ödənişlərlə bağlı strateji yol xəritəsinin hazırlanacağını bildirmişdir.

Mövzunu davam etdirən ***«Ernst & Young» şirkətinin vergi meneceri Zaur Qurbanov*** bildirmişdir ki, nağdsız hesablaşmaların tənzimləmə üsulları nağd hesablaşmaların məhdudlaşdırılması və stimullaşdırılmasından ibarətdir: «Azərbaycanda 2017-cı ildən qüvvəyə minmiş nağdsız hesablaşmaların hüquqi və iqtisadi əsaslarını müəyyən edən yeni qanun nağdsız hesablaşmaların anlayışı və formalarını, nağdsız qaydada həyata keçirilməli olan hesablaşmaların dairəsini, vergi ödəyiciləri arasında nağdsız ödəniş formasını müəyyənləşdirir. Azərbaycan qanunvericiliyi nağd hesablaşmaların məhdudlaşdırılmasına yönəlib. Məhdudlaşdırma iki formada - sahibkar və istehlakçılar və sahibkarların öz arasında nağd hesablaşmaların yuxarı həddini müəyyən edir. «Bir sıra ölkələr artıq nağd hesablaşmaları məhdudlaşdırılmışdır. Məsələn, Belçikada 2012-ci ildə nağd hesablaşmaların yuxarı həddi 15 min avrodan 5 min avroya, 2014-cü ildə isə 3 min avroya qədər endirilmişdir. İspaniyada isə 2012-ci ildə nağd hesablaşmaların 2500 avro, 2017-ci il üçün isə 1000 avroya qədər endirilmişdir. Fransada və İtaliyada nağd hesablaşmaların yuxarı həddi 1000 avro müəyyən edilmişdir». Nağdsız hesablaşmaların stimullaşdırılmasından bəhs edən natiq bir sıra ölkələrdə geniş tədbiq olunan vasitələrə diqqət çəkmişdir: «Cənubi Koreyada istehlakçı plastik kart vasitəsi ilə ödənilmiş məbləğin 10 faizini ödənilmiş vergilərdən çıxmaq, Uruqvayda və Cənubi Koreyada isə ticarətçilər nağdsız qaydada qəbul edilən məbləğləri ƏDV-dən çıxmaq hüququna malikdirlər. 2011-ci ilə qədər Cənubi Koreyada ticarətçilər üçün nağdsız qaydada qəbul edilən məbləği mənfəət vergisindən çıxmaq hüququ verilmişdir. Braziliya, Cənubi Koreya və Kolumbiyada istehlakçılar üçün vergi güzəştləri tətbiq olunur. Cənubi Koreya və Uruqvayda ticarət üçün vergi güzəştləri, Tayvan, Slovakiya, Malta, Portuqaliya və Polşada isə qəbz lotereyaları ən yaxşı stimullaşdırıcı vasitələrdir».

### Könüllü vergi açıqlaması sahibkarı cinayət məsuliyyətindən azad edir

***«BP» şirkətinin regional vergi və gömrük xidmətləri üzrə meneceri Ceyhun Məmmədov*** «Vergi öhdəliklərinin müəyyənləşdirilməsi və könüllü əməletmə» mövzusunda çıxış etmişdir. Dünya təcrübəsinə istinad edən natiq «Böyük 20-lik» dövlətlərinin vergi şəffaflığı təşəbbüsü və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyələrinin bu istiqamətdə mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır: «Könüllü vergi açıqlaması - səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan hallar vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü şəkildə bəyan edilir. Könüllü vergi açıqlaması barədə vergi orqanına forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hesabat təqdim olunur. Könüllü vergi açıqlaması zamanı təqdim edilmiş hesabat üzrə vergi ödəyicisi tərəfindən yalnız hesablanmış vergi məbləği büdcəyə ödənilir. Bu vergi açıqlamasının təqdim olunmasının ən müsbət cəhəti sahibkarın cinayət məsuliyyətinə cəlb olunmasının nəzərdə tutulmamasıdır. Belə bir addımın atılması Azərbaycan sahibkarları üçün yaxşı və uğurlu başlanğıc deməkdir».

***«PricewaterhouseCoopers» (PwC) şirkətinin rəhbəri Mövlan Paşayev*** şəffaflıq prosesinin əsasını təşkil edən vergi öhdəliyinin öncədən müəyyən edilməsi üçün əhəmiyyət kəsb edən yeni normalar haqqında danışmışdır: «Vergi öhdəliyinin öncədən müəyyənləşdirilməsi konsepsiyasının təqdim edilməsi ölkəmizin vergi sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması, vergi ödəyiciləri ilə vergi orqanları arasındakı əməkdaşlığı yeni səviyyəyə qaldırmaqla bərabər, vergi inzibatçılığının da yüngülləşdirilməsi istiqamətində irəliyə doğru atılmış addımdır. Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı davamlı şəkildə təkliflər irəli sürən və bu dəyişikliklərin qəbul olunması prosesində fəal iştirak edən «PwC Azerbaycan»ın əsas məqsədi cəmiyyətdə etimad yaradaraq işgüzar mühiti təkmilləşdirmək, bu mühüm transformasiya prosesində dövlətə dəstək olmaqdır».

*Sessiyanın sonunda biznes nümayəndələrinin fikir və təklifləri dinlənilmiş, tədbir iştirakçılarının vergi qanunvericiliyinə edilmiş dəyişikliklər və digər istiqamətlər barədə sualları cavablandırılmışdır.*

### Vergi ödəmək vərdişi cəmiyyətin həyat normasına çevrilməlidir

***«Societe Generale Banking Group»un Azərbaycan və Qazaxıstan nümayəndəliyinin rəhbəri Teybə Quliyevanın*** moderatorluğu ilə keçirilən ikinci sessiya «Vergi inzibatçılığının təkmilləşdirilməsi» mövzusuna həsr olunmuşdur.

***Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov*** «Vergi xidmətləri vergi sistemində aparılan islahatlarda lokomotiv rolunda» mövzusunda təqdimatında bildirmişdir ki, vergi sisteminin təkmilləşdirilməsi istiqamətində atılan hər bir addımda qarşı tərəfin - vergi ödəyicilərinin maraqlarını daim yüksək tutulur: «Vergilər Nazirliyi vergi ödəyiciləri arasında maarifləndirmə, məlumatlandırma və təbliğat işlərinin aparılmasına həmişə böyük önəm verib və bu iş nazirliyin daim diqqətindədir. Keçmiş sovet məkanında vergi administrasiyaları arasında vergi xidməti strukturu ilk dəfə Azərbaycanın Vergilər Nazirliyində formalaşıb və hazırda ayrıca bir departament kimi fəaliyyət göstərir».

140-dan artıq xidmət standartının müəyyən olunduğunu, 63-dən yuxarı elektron xidmətlərin vergi ödəyicilərinin ixtiyarına verildiyini deyən Ə.Məmmədov bildirmişdir ki, 2013-2020-ci illərdə vergi sisteminin inkişafı strategiyasında Vergilər Nazirliyinin qarşısında qoyulan 4 əsas missiyanın ikisi vergi xidməti ilə bağlıdır: «Bunlar: vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prinsiplərinə əsaslanan keyfiyyətcə yeni əməkdaşlıq strategiyasının yaradılması, əhalinin vergi mədəniyyətinin yüksəldilməsi; eləcə də vergi ödəmə vərdişlərinin cəmiyyətin həyat normasına çevrilməsidir. Gördüyünüz kimi, Vergilər Nazirliyində vergi ödəyicilərinə münasibət həmişə yüksək olub və maarifləndirmə, məlumatlandırma, təbliğat işi əsas hədəf kimi seçilib».

Vergi sistemində aparılan təşkilati struktur dəyişiklikləri barədə danışan Ə.Məmmədovun sözlərinə görə, dəyişikliklərin əsas mahiyyəti diferensial vergi inzibatçılığının təqdim olunmasıdır. Qeyd etmişdir ki, kiçik sahibkarlarla aparılan işlərin çeşidi və keyfiyyəti artırılır, onlara ünvanlı xidmətlər göstərilir, sabit vergi dərəcəsi tətbiq edilir, nəzarət tədbirləri minimuma endirilir və s. Orta və iri sahibkarlara göstərilən xidmətlər isə əsasən partnyorluq münasibətləri çərçivəsində aparılır, intizamlı vergi ödəyicilərinə «yaşıl dəhliz» prinsipi ilə ənənəvi və innovativ, lazım gəldikdə fərdi xidmətlər göstərilir, müraciətlər qısa müddətdə araşdırılır, könüllü vergi açıqlaması sisteminin, elektron auditin tətbiq dairəsi genişləndirilir: «Bu günə qədər 447 vergi ödəyicisi partnyor vergi ödəyicisi statusu almışdır və onlara «yaşıl dəhliz» prinsipi ilə ənənəvi və innovativ xidmətlər göstərilir. Hazırda bütün xidmət mərkəzlərində «yaşıl dəhliz» masası partnyor vergi ödəyicilərinin ixtiyarına verilib». Ötən il xidmət mərkəzlərində 507 mindən artıq vergi ödəyicisinin qəbul edildiyini diqqətə çatdıran natiq bildirmişdir ki, onlara 816 min xidmət göstərilmişdir. Bundan əlavə, Vergilər Nazirliyinin Çağrı Mərkəzinə 220 mindən artıq zəng daxil olmuş, həmin zənglərin 214 mini cavablandırılmışdır. Vergi Məcəlləsinə edilən son dəyişikliklərlə əlaqədar respublikanın müxtəlif yerlərində keçirilən 24 görüşdə 3 mindən artıq vergi ödəyicisi iştirak etmişdir. Ötən il 12 mindən artıq vergi ödəyicisinə ünvanlı xidmət göstərilmişdir.

### Kredit faizləri üzrə bazar qiyməti prinsipinə yenidən baxılmalıdır

***«KPMG Azərbaycan» şirkətinin vergi və hüquq departamentinin rəhbəri Müşfiq Əliyev*** «Vergi tənzimlənməsinin maliyyə sektoruna təsiri» mövzusunda təqdimatla çıxış etmişdir. Vergi Məcəlləsində maliyyə sektoruna aid bir sıra dəyişikliklərin edildiyini deyən şirkət nümayəndəsi bildirmişdir ki, mühüm dəyişikliklərdən biri hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1% dərəcə ilə sadələşdirilmiş verginin hesablanmasıdır. Digər dəyişikliklə ödəmə qabiliyyətini itirmiş bankların 2017-ci il yanvarın 1-dən 3 il müddətinə qeyri-işlək aktivləri ƏDV-dən azad olunmuşdur.

Vergi Məcəlləsinə maliyyə institutu anlayışının daxil edildiyini diqqətə çatdıran M.Əliyevin sözlərinə görə, yeniliyə əsasən, vergi orqanları respublikamızın tərəfdar çıxdığı, maliyyə institutları tərəfindən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsinə nəzarət tədbirlərini həyata keçirə bilərlər. Bununla yanaşı, maliyyə institutları vergi monitorinqinin aparılması ilə bağlı maliyyə əməliyyatları barədə sənədləri, məlumatları və elektron hesabatları vergi orqanlarına təqdim etməlidir, əks halda, 1000 manat maliyyə sanksiyası nəzərdə tutulmuşdur: «Digər dəyişikliyə görə, banklar hüquqi və fiziki şəxslərə hesab açdıqda və ya maliyyə xidmətləri göstərdikdə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl olunmasını təmin etməlidirlər. Bu qaydaların pozulmasına görə 100 manat maliyyə sanksiyası nəzərdə tutulur. Bundan əlavə, respublikanın rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən əməliyyatı həyata keçirən yerli bank, xarici bankın respublikamızdakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutub dövlət büdcəsinə köçürməlidirlər. Bu zaman pulların xaricə keçirilməsinin qarşısı alınacaq, pul vəsaitləri respublika daxilində qalacaq».

***«Rabitəbank»ın İdarə heyətinin sədri Elçin Qədimov*** da eyni mövzu üzrə çıxış edərək bildirmişdir ki, bankları ən çox narahat edən məsələlərdən biri kredit faizlərinə bazar qiymətinin tətbiq olunmasıdır: «Banklarda oxşar mal və xidmətlərə görə tətbiq olunan bazar qiymətindən 30 faiz dəhlizində fərqlənən qiymət qoyulur. Bu da banklarda vergi orqanı əməkdaşları ilə müəyyən problemlərin yaşanmasına gətirib çıxarır. Çünki banklar tərəfindən müxtəlif strategiyalar aparılır, bu baxımdan, 30 faiz dərəcə dəhlizinin saxlanması onlar üçün kifayət qədər çətinlik yaradır. Təklif edərdik ki, kredit faizlərinə bazar qiyməti prinsipi ya ümumiyyətlə tətbiq olunmasın, ya da tətbiq edilərkən eyni bankda olan kreditlər üzrə son 30 gündə verilən kreditlərə bazar qiyməti tətbiq edilsin. Eynilə oxşar problem restrukturizasiya olunmuş kreditlərdə də mövcuddur. Hazırda müştərilərin ödəmə qabiliyyəti aşağı düşdüyü üçün kreditlər kütləvi şəkildə restrukturizasiya edilir və banklar nəinki faiz dərəcəsi, hətta kreditin əsas məbləği üzrə müştərilərə böyük güzəştlərə getməli olurlar. Nəticədə bazar qiyməti prinsipinə riayət etmək xeyli çətinləşir. Bu baxımdan, restrukturizasiya olunan kreditlər üzrə də təkliflərimiz oxşardır: ya restrukturizasiya kreditləri üzrə bazar qiyməti tətbiq edilməsin, ya da yalnız restrukturizasiya olunmuş kreditlər əsasında bazar qiyməti müəyyən edilərək hesablansın».

Daha sonra özəl sektorla dövlət qurumları arasında əlaqələrin daha da gücləndirilməsi istiqamətində Vergilər Nazirliyi, Auditorlar Palatası, «Deloitte & Touche», «EY Azərbaycan», «PwC Azərbaycan» və «KPMG Azərbaycan» arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

### Şəffaflığın təmin edilməsi üçün bütün işlərin öhdəsindən gələcəyik

Tədbirdə çıxış edən ***vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov*** vergi konfransının müsbət nəticələr verəcəyinə ümid etdiyini bildirərək qeyd edilmişdir ki, ölkə iqtisadiyyatının, eləcə də sahibkarlığın inkişafında dövlət və özəl sektoru təmsil edən təşkilatların birgə fəaliyyətindən çox şey asılıdır: «Bu il yanvar ayının 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsində olduqca ciddi dəyişikliklər edilib. Bu konfrans və indiyə qədər yerlərdə vergi ödəyiciləri ilə keçirilmiş görüşlər onu göstərir ki, qanunçuluğa edilmiş yeniliklərin vergi ödəyicilərinə çatdırılması üçün hələ bundan sonra da xeyli iş görülməlidir. Bu, təbii haldır. Çünki Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər indiyə qədər Məcəllədə əks olunmamış məsələlərdir. Nağdsız ödənişlərin tətbiqi, elekton ticarətin vergiyə cəlb olunması, offşor zonalarla bağlı müddəalar və digər məsələlər ölkəmizin vergi praktikasında, demək olar ki, tətbiq olunmamışdır və bir-iki ay ərzində bu dəyişiklikləri hamının tamamilə başa düşüb tətbiq etməsini gözləmək də reallıqdan uzaq olardı. İmzaladığımız memorandum, birgə fəaliyyətimiz bu məsələlərin həllində bizə yardımçı olacaqdır».

Sahib Ələkbərov vurğulamışdır ki, şəffaflıq ölkə iqtisadiyyatının qarşısında duran ən vacib məsələlərdən biridir və ölkə başçısı bunu hər çıxışında xüsusi qeyd edir: «Bugünkü müzakirələr də onu deməyə əsas verir ki, biz birlikdə şəffaflığın təmin edilməsi üçün qarşımıza çıxan hər bir məsələnin öhdəsindən gələ biləcəyik. Biz sahibkarlarımıza kömək etməliyik ki, onlar da iqtisadiyyatımızın qarşısında duran vəzifələrin həllində dövlət orqanlarına kömək etsinlər».

«AmCham»ın prezidenti Nuran Kərimov bildirmişdir ki, təşəbbüskarı Vergilər Nazirliyi olan bu konfrans biznes sektorunun nümayəndələri ilə birbaşa ünsiyyətdə olmağa, vacib məsələlərin müzakirəsinə geniş imkanlar yaradır. Vergilər Nazirliyinin nümayəndələrinin qaldırılan hər bir sualı ətraflı cavablandırması da səmərəli dialoqun göstəricisidir və əminik ki, ölkə iqtisadiyyatının mənafeyi naminə bu məhsuldar dialoq davam etdiriləcək.

Biz sahibkarlarımıza kömək etməliyik ki, onlar da iqtisadiyyatımızın qarşısında duran vəzifələrin həllində dövlət orqanlarına kömək etsinlər




## Tədbir iştirakçılarının təəssüratları

***«Dentos» hüquq şirkətinin hüquqşünası Sona Tağıyeva:*** «Bu cür tədbirlərin vaxtaşırı keçirilməsi biznes sektoru üçün çox mühümdür. Çünki biznes nümayəndələri birbaşa vergi orqanları və digər qurumlarla əlaqə saxlaya, onlara aydın olmayan və onları narahat edən məsələlər barədə öz fikirlərini söyləyə, qəbul olunmuş qanunlar və dəyişikliklərlə əlaqədar təkliflərini irəli sürə bilirlər. Hesab edirəm ki, biznes sektorunun istək və arzularının gələcəkdə də nəzərə alınması ümumilikdə iqtisadiyyatın inkişafı üçün pozitiv bir təməl təşkil edir».

***«Media Consulting and Services» şirkətinin rəhbəri Samir İsmayılov:*** «Vergi məsələlərinə həsr olunan konfransın keçirilməsini yüksək qiymətləndirirəm. Bu tədbirdə iştirak etməklə maarifləmə baxımından kifayət qədər məlumat əldə etdim, mənə aydın olmayan bəzi məsələləri ayrı-ayrı detalları ilə mənimsəyə bildim. Hesab edirəm ki, biznes sektoru ilə vergi orqanlarının belə görüşləri davam etdirilməlidir. Biz sözlə deyil, konkret fəaliyyətimizlə, işimizlə şəffaflığa doğru getməliyik».

***«Lukoil Overseas Şahdəniz» şirkətinin nümayəndəsi Yeganə Qasımova:*** «Vergi konfransını informativ xarakterli və biznes sektoru üçün əhəmiyyətli bir tədbir hesab edirəm. Fikrimcə, bugünkü tədbir biznes icması ilə Vergilər Nazirliyi arasında faydalı əməkdaşlığın inkişafına kömək edəcəkdir. Belə görüşlərin müntəzəm olaraq keçirilməsi şəffaflığa doğru birlikdə yola davam etməyimizə yardım edir».

***«Coca-Cola Azerbaijan» şirkətinin maliyyə meneceri Burak Ateş:*** «Bu cür tədbirlər vergi orqanı ilə biznes nümayəndələri arasında meydana çıxan mübahisələrin aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda ölkədə azad sahibkarlığa yaradılan əlverişli şərait, inzibati maneələrin aradan qaldırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, lisenziyalaşdırma və icazələr sahəsində islahatların həyata keçirilməsi, eləcə də vergi mühitinin yaxşılaşdırılması, hüquqi şəxslərin daha asan vergi rejimində fəaliyyət göstərməsi üçün təsirli addımlar atılmaqdadır. Vergi orqanı ilə sahibkarlar arasında açıq dialoq nə qədər dərin olsa, yarana biləcək mübahisələr də o qədər azalmış və ya öz həllini tapmış olar».

***«Ernst &Young» şirkətinin Azərbaycandakı partnyoru Arzu Hacıyeva:*** «Belə konfranslar yeni fikirlərin, yeni ideyaların müzakirə olunmasına və gələcəkdə qanun formasında öz əksini tapmasına imkan yaradır. Vergi Məcəlləsinə edilən sonuncu dəyişikliklərə gəlincə, bu, xüsusən, şəffaflığın artırılmasına münbit şərait yaradacaq. Gəlir vergisinə edilən güzəşt isə az maaş alan vətəndaşlar üçün kifayət qədər böyük stimuldur».

*Hazırladılar:* **Elbrus CƏFƏRLİ, Aytən NƏBİYEVA**

## Vergi ödəyicisinin sualı var...



**Samirə Musayeva**
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Azərbaycanda vergi yükü

Vergi qanunvericiliyində edilmiş və 1 yanvar 2017-ci il tarixdən qüvvəyə minmiş dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və onlara göstərilən xidmətlərin səviyyəsinin artırılması ilə yanaşı, vergi yükünün azaldılmasını da nəzərdə tutur. Bu da təbiidir, çünki ölkəmizdə həyata keçirilən dövlət vergi siyasətinin əsas hədəflərindən biri vergi yükünün optimallaşdırılması və vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsinin təmin edilməsidir. Vergi yükünün optimallaşdırılması məqsədilə bir sıra mallar və xidmətlər üzrə vergilərin dərəcələri tam və ya qismən azaldılmış, bir sıra vergi güzəştləri tətbiq olunmuşdur ki, bu da vergi ödəyiciləri üçün əlverişli vergi mühitinin yaranmasına şərait yaratmışdır.

Vergi ödəyicilərinin müəyyən dövr ərzində həyata keçirdikləri təsərrüfat fəaliyyəti ilə bağlı ödədikləri vergilərin məcmusu vergi yükü hesab olunur və bu göstəricinin səviyyəsi vergi ödəyicisinin ödədiyi vergilərin onun əldə etdiyi gəlirlərə nisbəti kimi müəyyən edilir.

Bir sıra beynəlxalq təşkilat və qurumlar dünya ölkələrinin müxtəlif metodologiyalar əsasında hesablanmış illik vergi yükü barədə məlumatları mütəmadi olaraq dərc etdirirlər. Dünya Bankının «Doing business» hesabatı (ümumi vergi dərəcəsi), Heritage Fondunun «İqtisadi azadlıq indeksi» kimi məlumatlar da bu qəbildəndir. «Doing business 2017» hesabatının Vergilərin ödənilməsi (Paying Taxes) indikatoru üzrə Azərbaycanın ümumi vergi dərəcəsi (o cümlədən sosial sığorta ödəmələri daxil olmaqla) 39,8% göstərilmişdir. Həmin hesabatda Portuqaliya (39,8%), Niderland (40,4%), Türkiyə (41,1%), ABŞ (44%), Avstraliya (47,6%), Almaniya (48,9%), İspaniya (49,0%), Avstriya (51,6%), İtaliya (62%) və Fransa (62,8%) kimi inkişaf etmiş ölkələrin vergi yükü daha yüksək olmaqla əks etdirilmişdir. Bu göstərici keçmiş sovet dövlətlərindən Moldovada 40,4%, Litvada 42,7%, Rusiyada 47,4%, Estoniyada 48,7%, Ukraynada 51,9%, Belarusda 54,8%-dir. Qeyd etmək lazımdır ki, bura sosial sığorta ödəmələri də daxildir.

Heritage Fondunun 2017-ci il üzrə dərc etdirdiyi rəsmi «İqtisadi azadlıq indeksi»ndə isə Azərbaycanın vergi yükü (sosial sığorta ödəmələri nəzərə alınmadan) 14,2% olmaqla 28-ci yerdə göstərilmişdir. Bu sıralamada vergi yükünün səviyyəsinə görə Azərbaycan bir çox ölkələrdən daha əlverişli mövqeyə malikdir. MDB ölkələrindən Qazaxıstan (13,2%) bu sıralamada 20-ci yerdə qərarlaşmışdır. Hesabatın 2017-ci il üzrə göstəricilərinə əsasən Özbəkistan 19,7%, Qırğızıstan 20,8%, Tacikistan 22,8%, Belarus 23%, Ermənistan 23,5%, ABŞ 26%, Latviya 27,8%, Türkiyə 28,7%, Litva 29,3%, Rusiya isə 35,3% vergi yükünə malikdir.

Göründüyü kimi, Azərbaycanda vergi yükü ümumilikdə bir sıra Avropa və MDB ölkələrindən daha aşağı səviyyədədir.




## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2016-cı hesabat ilinin yekunlarına görə:**

- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;
- Əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini

cari ilin **mart ayının 31-dən gec olmayaraq** vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

**Bildiririk ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:**

- vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində;

- büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda, vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) **50 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Vergi qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaqla vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur.

Vergi öhdəlikləri vaxtında yerinə yetirməyi tövsiyə edirik.

Əlavə məlumat üçün "195-1" Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Yeni departament yaradılıb

Vergilər nazirinin əmri ilə nazirliyin strukturunda Əlaqələndirmə və idarəetmə departamenti yaradılıb. Yeni departament vergi orqanları və yerli strukturlar arasında koordinasiyanı təmin edəcək. Departamentin tərkibində Əlaqələndirmə, İdarəetmə, Monitorinq və Qiymətləndirmə şöbələri fəaliyyət göstərəcək, onlar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinin fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsinin təmin edilməsi, vergi əməletməsi üzrə fəaliyyətin kompleks təhlili istiqamətində və s. funksiyaları icra edəcək.

Yeni yaradılmış departamentin baş direktoru vəzifəsinə vergilər nazirinin müşaviri İlqar Əhmədov təyin edilib.

# Vətəndaş müraciətləri diqqətdən kənarda qalmır

2017-ci ilin fevral ayı ərzində vergi orqanlarına 9031 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,3% azdır. Müraciətlərin 41,8%-i müxtəlif arayışların alınması, 23,2%-i kameral vergi yoxlamaları, 13,7%-i vergi borcları, 3,4%-i vergi qanunvericiliyinin tətbiqi, 2,8%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 1,4%-i səyyar vergi yoxlamaları, 0,7%-i qəbul, 0,4%-i işlə təmin olunma, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i operativ vergi nəzarəti tədbirləri, 0,1%-i korrupsiya hüquqpozmaları, qalanları isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 69,2%-i müsbət həll olunub. Hesabat dövründə vergi orqanlarında ümumilikdə 388 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə əsasən, fevralın 24-də vergilər naziri tərəfindən Gədəbəy şəhərində Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan 30 vətəndaş qəbul edilib.

# Vergilər Nazirliyində ənənəvi qanvermə aksiyası

Mart ayının 6-da vergi orqanlarında talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlar üçün könüllü qanvermə aksiyasına start verilib. Vergi orqanlarının əməkdaşları artıq ənənəyə çevrilmiş qanvermə aksiyalarında 11 ildir ki, fəal iştirak edirlər.

Builki qanvermə aksiyasının ilk günündə Vergilər Nazirliyi Aparatının struktur bölmələrinin 200 nəfərdən çox əməkdaşı iştirak edib. Aksiya nazirliyin yerli strukturlarında mart ayının 14-dək davam etdiriləcəkdir.



# Nağdsız hesablaşmaların inkişaf istiqamətləri

**2017-ci ildən iqtisadi islahatların tərkib hissəsi olaraq nağdsız hesablaşmaların dövriyyəsinin artırılması istiqamətində geniş tədbirlər görülməyə başlanılmışdır. İlk olaraq bu hesablaşmaların dövriyyəsinin artırılması məqsədilə bir sıra qanunvericilik aktlarında dəyişikliklər edilmiş, «Nağdsız hesablaşmalar haqqında» Qanun qüvvəyə minmişdir.**

Bank mütəxəssisi Bəxtiyar Məmmədov mövzunu şərh edərək bildirmişdir ki, nağdsız ödənişlərin stimullaşdırılması ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsinə yönəlmiş addım hesab edilir, həmçinin vəsaitlərin dövriyyəsinin sürətləndirilməsi, nağd pul çapı, daşınma, saxlanma və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında əhəmiyyətli rol oynayır.

Nağdsız ödənişlərin stimullaşdırılması və dövriyyəsinin artması bank sektorunun da inkişafına müsbət təsir edir. Yaxın illərədək banklar əsas gəlir mənbəyi olaraq kredit məhsullarının satışını görürdülərsə və fiziki şəxslərin dövriyyəsindən əldə edilən əməliyyat gəlirləri ikinci planda dayanırdısa, bu gün banklar kredit məhsulları ilə yanaşı, nağdsız dövriyyənin həcminin artmasından yaranan gəlirlərin əldə edilməsinə daha ciddi maraq göstərirlər: «Bankların gəlirlərinin böyük hissəsinin əməliyyat gəlirlərindən formalaşması daha az risklər yaradır. Azərbaycan banklarının demək olar ki, hər biri müştəri bazasının genişləndirilməsi, yeni sahibkar fiziki şəxs və hüquqi şəxslərin cəlb edilməsi istiqamətində müxtəlif məhsul və xidmətlər təklif etməkdədirlər. Hazırda qəbul edilmiş normativ hüquqi bazanın yeni olması, bank sektorunda yeni qanunvericilik aktlarına dair müəyyən sualların meydana gəlməsi, bankların nağdsız ödənişlər sahəsində təcrübələrinin geniş olmaması səbəbindən, təklif edilən bank məhsulları və xidmətlərində müəyyən boşluqlar vardır. Lakin bu yolu keçmiş digər ölkələrin təcrübəsi göstərir ki, tədricən həm qanunvericilik aktlarında, həm də banklarda təkmilləşmə olacaqdır».

Azərbaycanda cari iqtisadi mühitə uyğun olaraq banklar bir neçə istiqamətlərdə inkişafdadır ki, bunlardan birincisi internet bankçılıqdır: «Yaxın 3 illik dövrdə bütün Azərbaycan banklarında internet bankçılığın tətbiq edilməsi və inkişaf etdirilməsi qaçılmazdır. Bu xidmət müştəri və bank arasında təşkil edilmiş əlaqə vasitəsidir, onun vasitəsilə müştəri banka gəlmədən bankın təklif etdiyi xidmətlərdən faydalanır. İnternet bankçılıq vasitəsilə müştərilər müxtəlif pul köçürmələri həyata keçirmək, vəsaitləri depozit şəklində banka qoymaq, kreditlərlə bağlı müraciətlər etmək, əməliyyatların tarixçəsi ilə tanış olmaq və digər bu kimi imkanlar əldə edirlər».

Mütəxəssisin sözlərinə görə, plastik kartlarla iş də müasir bankçılıq üçün önəmli istiqamətlərdəndir. Bu sahədə Azərbaycan bankları 90-cı illərin sonlarından müxtəlif növ məhsullar yaratmış və tətbiq etmişlər. Banklar plastik kartlarla bağlı məhsulları əsasən vəsaitin nağdlaşdırılması, yaxud fiziki şəxslərin müəyyən istehlak xərcləri ilə bağlı nağdsız ödənişlərini həyata keçirməsi üçün vasitə kimi tətbiq etmişlər. Fiziki şəxslər arasında «Card-to-Card» xidməti həyata keçirilməkdədir - bu, bir plastik kart hesabından digər plastik kart hesabına bankomatlar vasitəsilə pul köçürülməsi əməliyyatıdır. Lakin qanunvericilik aktlarında edilən dəyişikliklərdən sonra banklar plastik kartların sahibkarlıq subyektlərinin hesablaşmalarında rolunu nəzərə almağa başlamışlar. Bir çox banklar artıq sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün korporativ plastik kart məhsullarını bazara təqdim etmişlər. Bu kartlar vasitəsilə sahibkarlıq subyektləri köçürmələri daha rahat şəkildə həyata keçirəcəklər. Lakin bu məsələ ilə bağlı da qanunvericilik aktlarında müəyyən təkmilləşdirmə aparılmalıdır. Çünki hazırda plastik kart vasitəsilə ödəniş edərkən mütləq olaraq ödənişin səbəbi müəyyən edilməlidir. Lakin plastik kartlarla köçürmələr (hesablaşmalar) həyata keçirilən zaman banklar əksər hallarda bu ödənişin hansı sənədlər əsasında və hansı məqsədlə həyata keçirildiyini müəyyən edə bilmir. Bu isə sahibkarlıq subyektlərinin əməliyyatlarına nəzarət mexanizmində müəyyən boşluqlar yaradır.

Bu gün bir çox banklar müştərilərinə mobil telefonlar üçün xüsusi proqram təminatları vasitəsilə fiziki şəxslərin müəyyən nağdsız ödənişləri həyata keçirməsi xidməti göstərirlər. Bu məsələ də bank sektoru üçün sahibkarlıq subyektlərinə xidmət sahəsində yeni inkişaf istiqamətlərindəndir.

Mütəxəssisin sözlərinə görə, ödəniş terminalları ilə həyata keçirilən əməliyyatlar nağdsız ödəniş hesab edilsə də, «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.2 bəndinə əsasən, hər iki tərəf vergi ödəyicisi olduğu halda, bu üsulla nağdsız ödənişlərin həyata keçirilməsi qadağan edilmişdir: «Əslində, ödəniş terminalları vasitəsilə bir vergi ödəyicisinin öz cari hesabına mədaxil etməsi, daha sonra isə həmin hesabdan digər vergi ödəyicisinə vəsait köçürməsi mümkün idi. Lakin qanunvericilikdə bu üsulla nağdsız ödənişin vergi ödəyiciləri arasında həyata keçirilməsi qadağan edilmişdir. Hesab edirəm ki, qanunvericilik aktları təkmilləşdirildikcə bu istiqamətdə də müəyyən irəliləyişlər olacaqdır».

Qeyd etmək yerinə düşər ki, qanunvericilikdə nəzərdə tutulmuş bir sıra müddəalar müəyyən qadağalar yaradır, lakin bu əməliyyatlara nəzarət mexanizmləri hazırlanmamışdır. Məsələn, qanunvericilikdə iki yüz min manatdan yuxarı məbləğdə aylıq dövriyyəsi olan müəyyən vergi ödəyiciləri üçün nağd ödənişlərlə bağlı müəyyən məhdudiyyətlər təyin edilmişdir. Lakin banklar tərəfindən əməliyyatlar aparılan zaman həmin vergi ödəyicisinin müxtəlif banklar vasitəsilə həyata keçirdiyi dövriyyəni nəzərə almaq mümkün deyildir. Bu səbəbdən də gələcəkdə bankların sahibkarlıq subyektləri arasında həyata keçirdiyi əməliyyatları barədə məlumatların mərkəzləşdirilmiş reyestr kimi bir informasiya sisteminə ötürülməsi nəzarət mexanizminin daha da təkmilləşməsinə səbəb ola bilər. Bu, aşağıdakı şəkildə təşkil edilə bilər:

- Banklar və müvafiq dövlət qurumu arasında sahibkarlıq subyektlərinin əməliyyatlarının mərkəzləşdirilmiş reyestri sistemi yaradıla bilər.
- Banklar tərəfindən sahibkarlıq subyekti üçün hər hansı nağd və ya nağdsız əməliyyat həyata keçirilərkən həmin əməliyyatın növü, məbləği və təyinatı ilə bağlı ümumi informasiya onlayn rejimdə veb-servislər vasitəsilə müvafiq dövlət qurumuna ötürülə və ani olaraq avtomatik qaydada cavablana bilər, cavabda əməliyyata dair sahibkarlıq subyektinin cari vəziyyətinə uyğun bütün vergi və digər qanunvericilik aktları üzrə maliyyə öhdəlikləri barədə məlumat ola bilər.
- Banklar əldə etdikləri məlumata uyğun olaraq müştəriyə məlumat verə və müştərinin razı olduğu təqdirdə əməliyyatı həyata keçirə bilərlər.

Bu tipli sistem və qanunvericilik dəyişiklikləri tətbiq edilərsə, mütləq olaraq sahibkarların fəaliyyətini məhdudlaşdıra biləcək hallar tam araşdırılmalı və müvafiq tədbirlər həyata keçirilməlidir. Həmçinin, banklar nağdsız ödənişlərin inkişafı, distant xidmətin təşkili zamanı mütləq şəkildə təhlükəsizlik tələblərini nəzərə almalıdırlar. Bu tədbirlər isə banklarda yüksək menecment tərəfindən təşkil olunmalı, bütün pillələri əhatə etməlidir.

**Fəxriyyə İKRAMQIZI**

# Nağdsız hesablaşmaların həcminin artırılması şəffaflığın əsas şərtlərindən biridir



Vergilər Nazirliyinin Vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş direktoru Toğrul Quliyev nağdsız hesablaşmalarla bağlı qanunun tətbiqi ilə bağlı maraq doğuran məsələləri şərh edir

***- Toğrul müəllim, məlum olduğu kimi, 16 dekabr 2016-cı il tarixdə «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. Bu Qanunun tətbiqi, eyni zamanda vergi orqanları qarşısında qoyulan yeni vəzifələrlə bağlı oxucularımıza məlumat verməyinizi xahiş edirik.***

- «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatların və hesablaşmaların şəffaflığının təmin edilməsi, vergiyə cəlb edilən dövriyyənin vergi hesabatlarında dəqiq əks etdirilməsi, vergidən yayınma hallarının qarşısının alınması istiqamətində atılmış çox mühüm bir addımdır və şəffaflığın təmin olunmasının əsas şərtlərindən biridir.

Qanunun 3.4-cü maddəsinə əsasən, vergilərin, gömrük rüsumlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının, faizlərin, sığorta ödənişlərinin, əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqlarının (o cümlədən: işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım və müavinətlərin (o cümlədən birdəfəlik müavinətlər), kompensasiya və təzminatların, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsinin, faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılmasının, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsinin (xərclənməsi), təhsil haqlarının ödənilməsinin, turagentlərə ödəmələrin yalnız nağdsız qaydada həyata keçirilməsi nəzərdə tutulub.

Göründüyü kimi, qanunun əhatə dairəsi kifayət qədər genişdir. Bu səbəbdən, həmin vergi ödəyicilərinin qanunvericiliyin tələblərinə düzgün əməl etməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən sığorta, lizinq, təhsil müəssisələri və turagentlərin siyahısı müəyyən edilərək onlara izahlı bildirişlər göndərilib, görüşlər keçirilərək qanunun tələbləri həmin vergi ödəyicilərinə izah edilib. Təbii ki, Vergilər Nazirliyi təkcə maarifləndirmə və məlumatlandırma işi ilə kifayətlənmir, eyni zamanda həmin vergi ödəyicilərində ödənişləri nağdsız qaydada qəbul etmək üçün müvafiq infrastrukturun yaradılması işində zəruri dəstək göstərir, olmadığı təqdirdə bank hesablarının açılması, POS-terminalların və digər ödəniş vasitələrinin quraşdırılması üçün onlara lazımi köməklik göstərir.

***- Vergilər Nazirliyi tərəfindən sözügedən qanunun tələblərinə əməl edilməsinə nəzarət etmək məqsədilə hansı addımlar atılır?***

- Biz artıq müəyyən tədbirlər görməyə başlamışıq. Belə ki, yaxın vaxtlarda vergi ödəyicilərinin bank hesablarından çıxarılmış vəsaitlərin məbləği, sığorta əməliyyatları, kommunal xidmətlər göstərən təşkilatların fəaliyyəti və digər əlaqəli məlumatlar əldə ediləcək, riskli vergi ödəyiciləri müəyyən olunaraq onlarla fərdi qaydada işlər aparılacaqdır. Məlum olduğu kimi, vergi sisteminə yoxlama və nəzarət tədbirləri risk modelləri əsasında təyin edilir. Yəni müəyyən məlumatlar əsasında riskli vergi ödəyiciləri müəyyən edilir və riskin səviyyəsinə uyğun olaraq, nəzarət tədbiri həyata keçirilir. Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, vergi ödəyiciləri tərəfindən bank hesablarından nağd şəkildə çıxarılan vəsaitlərdən banklar tərəfindən 1% dərəcə ilə vergi tutulur və bu barədə vergi orqanlarına hesabat təqdim edilir. Həmin hesabatlarda vergi ödəyiciləri tərəfindən nağdlaşdırılmış vəsaitin məbləğinə baxılacaq, əgər bu məbləğ risk yaradırsa, belə halda həmin ödəyicilər tərəfindən qanunun tələblərinə əməl edilib-edilməməsini yoxlamaq məqsədilə onların fəaliyyəti xüsusi nəzarətə götürüləcək.

Qanunun tələblərinə əməl olunmasına nəzarətin təmin edilməsi məqsədilə Vergi Məcəlləsinə də müvafiq əlavələr edilib. Belə ki, Vergi Məcəlləsinin 50-ci maddəsinə edilmiş əlavə ilə nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyən edilmiş tələblərə əməl olunmasına nəzarət edilməsi operativ vergi nəzarəti ilə əhatə olunan məsələlərin dairəsinə daxil edilib. Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada aparılmasına görə malı (işi, xidməti) təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

***- Qanunla müəyyən kateqoriyalara aid vergi ödəyiciləri üzrə nağd hesablaşmaların məbləğinə məhdudiyyətlər müəyyənləşdirilmişdir. Bu məhdudiyyətlər hansı kateqoriyadan olan vergi ödəyicilərini əhatə edir?***

- Qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. Burada bir məqama diqqət yetirmək lazımdır ki, məhdudlaşdırılmış məbləğ yalnız təqvim ayı üçün, yəni ilin hər bir ayının 1-dən sonunadək olan müddət üzrə nəzərdə tutulub. Qanunun bu maddəsində göstərilən məhdudiyyət çərçivəsində xərcləmələrə vergi ödəyiciləri xüsusi diqqət yetirməlidirlər.

Qanunun bu maddəsi ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvar ayının 1-dən tətbiq edilir, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci ilin aprel ayının 1-dən qüvvəyə minəcəkdir.

Hər bir vergi ödəyicisi sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı qaimə-faktura və ya elektron qaimə-faktura verməyə borcludur

***- Elə kateqoriya, məsələn, şadlıq evlərinin fəaliyyəti, ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri var ki, onların məsrəflərinin böyük bir hissəsini kənd təsərrüfatı məhsullarının alınmasına çəkilən xərclər təşkil edir. Bu məhsulların əsasən vergi ödəyicisi olmayan fiziki şəxslərdən alındığını nəzərə alsaq, nağd hesablaşmalarla aparılan əməliyyatların məbləğinə qoyulan bu məhdudiyyət həmin vergi ödəyicilərinin maraqlarına toxunmurmu?***

- Qanunun 3.5-ci maddəsi ilə məbləğinə heç bir məhdudiyyət qoyulmadan vergi ödəyicisi olmayan fiziki şəxslərdən nağd qaydada satın alına bilən malların siyahısı müəyyən edilib. Kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının alınması həmin siyahıya daxildir. Bununla da nağd hesablaşmalarla aparılan əməliyyatların məbləğinə qoyulan məhdudiyyət sualınızda qeyd olunan vergi ödəyicilərinin fəaliyyətini məhdudlaşdırmır və onların maraqlarına toxunmur.

***- Bəs qanunun tələblərinə əməl edilməsi üçün vergi ödəyicilərindən nə tələb olunur?***

- Buna qədər biz vergi ödəyicilərinin alacaqları mal, iş və xidmətlərə görə ödənişlərin nağdsız qaydada aparılması barədə danışdıq. Bunun üçün təbii ki, vergi ödəyicisinin bank hesabı olmalıdır. Qanunla, həmçinin, bir sıra fəaliyyət növü ilə məşğul olan şəxslərin həmin xidmətləri nağd qaydada göstərməsinə də məhdudiyyət qoyulub: məsələn, turagentlər və ya təhsil müəssisələri. Turagentlər təqdim etdikləri turların dəyərinin nağdsız qaydada ödənilməsini təmin etməlidirlər. Bunun üçün onlarda bank hesabı, POS-terminal olmalı, digər ödəniş vasitələrindən istifadə edilməlidir. Eyni məsələ təhsil müəssisələrinə də aiddir. Ödənilən təhsil haqları mütləq nağdsız qaydada aparılmalıdır. Əvvəldə də qeyd etdiyim kimi, bununla əlaqədar müvafiq fəaliyyət sahələri ilə məşğul olan vergi ödəyicilərinin məlumatlandırılması təmin edilib. Əlaqəli məlumatlar əsasında həmin vergi ödəyicilərinin fəaliyyətinə nəzarət təmin olunacaq.

***- 2017-ci il yanvarın 1-dən qüvvədə olan Vergi Məcəlləsinə əsasən mallar, işlər, xidmətlər yalnız ciddi hesabat blankları vasitəsilə alınmalıdır. Bu barədə oxuculara nə demək istərdiniz?***

- Əvvəlcə onu qeyd etmək istəyirəm ki, qanunvericilikdə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq hər bir vergi ödəyicisinin vəzifəsidir. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə bu məsələlərə daha da aydınlıq gətirildi. Qanunun tələbini pozan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsi də Vergi Məcəlləsində nəzərdə tutulub. Belə ki, hər bir vergi ödəyicisi sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı qaimə-faktura və ya elektron qaimə-faktura verməyə borcludur. Məlum olduğu kimi, gəlir və xərclərin, həmçinin vergitutma obyektlərinin uçotunun aparılmaması vergidən yayınmaya gətirib çıxarır. Bu cür halların qarşısının alınması məqsədilə Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərlə məsuliyyət tədbirləri nəzərdə tutulub. Belə ki, səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulub. Odur ki, maliyyə sanksiyalarına məruz qalmamaları üçün vergi ödəyicilərinə malları ciddi hesabat blankları əsasında almalarını tövsiyə edirəm.

Azərbaycan ərazisində malların sənədsiz satılması qanuna ziddir. Hər bir mal ya ölkədə istehsal olunur, ya da xaricdən idxal olunur: hər iki halda onlar qanunamüvafiq qaydada sənədləşdirilməlidir. Əgər satılan malın sənədi yoxdursa, deməli, o, ölkəyə ya qaçaqmal kimi gətirilib, ya da qanunsuz istehsala aiddir. Bu kimi halların qarşısı qətiyyətlə alınmalıdır.

***- Son olaraq oxuculara daha nə demək istərdiniz?***

- Oxucularımızın diqqətinə bir daha çatdırmaq istərdim ki, qanuna əsasən əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları yalnız nağdsız qaydada həyata keçirilməlidir. Muzdla çalışan işçilər işəgötürənlər tərəfindən onlara əmək haqlarının nağdsız qaydada, plastik kartlar vasitəsilə verilməsini tələb etməlidirlər. Vergilər Nazirliyi, təbii ki, qanunun tələblərinə ciddi əməl edilməsi üçün vergi ödəyicilərinə nəzarəti həyata keçirəcək.

Vergi qanunvericiliyində edilən dəyişikliklər, eləcə də «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi vergi ödəyiciləri üçün geniş imkanlar açmaqla bərabər, onlar tərəfindən uçotun düzgün aparılması, nağdsız hesablaşmalara üstünlük verilməsi kimi öhdəliklər qoyur. Bizim də vergi ödəyicilərindən xahişimiz odur ki, qanunun tələblərinə düzgün əməl etsinlər, alınan malların müqabilində onlara sənəd təqdim olunmadıqda mütləq Vergilər Nazirliyinə məlumat versinlər.

# Həmkarlar təşkilatının hesabat-seçki yığıncağı

Vergilər Nazirliyinin Mərkəzi Aparatının ilk həmkarlar təşkilatının hesabat-seçki iclasına sədrlik edən ilk həmkarlar təşkilatının üzvü, «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev çıxış edərək həmkarlar ittifaqları institutunun əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki, XXI əsrdə dövlət strukturlarının heç birini bu institutsuz təsəvvür etmək mümkün deyil. İşçilərin etibarlı sosial müdafiəsinin təmin olunması və hüquqlarının qorunmasında həmkarlar ittifaqlarının əvəzsiz rolu var.

Yığıncaqda nazirliyin Mərkəzi Aparatının ilk həmkarlar ittifaqı təşkilatının sədri Şöyüb Məmmədovun hesabatı dinlənilmiş, heyətin yeni üzvləri və həmkarlar ittifaqının yeni sədri, Vergilər Nazirliyinin Mərkəzi Aparatının həmkarlar ittifaqı təşkilatından Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin konfransına nümayəndələr seçilmişdir.

Ş.Məmmədov qeyd etmişdir ki, nazirliyin Mərkəzi Aparatında işləyən və həmkarlar təşkilatının üzvü olan əməkdaşların sayı 490 nəfərdir: «Mərkəzi Aparatın ilk həmkarlar təşkilatı hesabat dövründə öz işini günün tələbləri səviyyəsində qurmağa çalışmış və müəyyən nailiyyətlər əldə etmişdir. Vergilər Nazirliyinin Həmkarlar İttifaqı Komitəsi ilə birlikdə 20-yə yaxın iclas keçirilmiş, bu iclaslarda maddi yardım və yollayışlar, eləcə də mədəni-kütləvi tədbirlərin keçirilməsi kimi sosial yönümlü məsələlər müzakirə olunmuşdur. İşçilərə sanatoriya və istirahət evlərinə 95 yollayış verilmiş, 129 nəfərə maddi yardım edilmişdir. Qaçqınlarla işin təşkili ilk həmkarlar təşkilatının həmişə diqqət mərkəzində olmuşdur. Vergilər Nazirliyi tərəfindən bayramlar ərəfəsində Ağcabədi və İmişli rayonlarında müvəqqəti məskunlaşmış məcburi qaçqın ailələrinə ərzaq yardımı edilmişdir».

Qeyd olunmuşdur ki, işçilərin hüquqlarının daha da yaxşı qorunmasının təmin edilməsi üçün Vergilər Nazirliyi ilə Dövlət İdarələri və İctimai Xidmət işçiləri Həmkarlar İttifaqı arasında 2013-2016-cı illər üzrə Sahə kollektiv sazişi imzalanmışdır. Bu sazişin şərtlərinin yerinə yetirilməsi vəziyyəti Birləşmiş Həmkarlar İttifaqları Komitəsi ilə birlikdə yoxlanılır və nəzarət edilir.

Sonda Şöyüb Məmmədov nazirliyin Mərkəzi Aparatının ilk həmkarlar ittifaqına yenidən sədr seçilmişdir.

**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanda makroiqtisadi sferada müşahidə olunan ilkin müsbət trendləri və formalaşan yeni gözləntiləri nəzərə alaraq, Mərkəzi Bankın İdarə Heyəti faiz dəhlizinin parametrlərinin, o cümlədən uçot dərəcəsinin dəyişməz saxlanması barədə yekdil qərar qəbul edib.

KfW bankı Azərbaycanda içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrini maliyyələşdirmək niyyətindədir.

Aprelin 3-də Bakıda Rusiyanın Omsk vilayətinin şirkətlərinin nümayəndələri ilə işgüzar görüş keçiriləcək.

Azərbaycan Ukraynada «Azərbaycan Ticarət Evi» yaratmaq niyyətindədir.

Martın 13-də Kiyevdə keçirilən Ukrayna-Azərbaycan biznes-forumunda birgə müəssisələrin yaradılması ilə bağlı razılaşma əldə edilib.

«Trans-Anadolu» qaz boru kəməri (TANAP) ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün işlərin 75 faizi tamamlanıb.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Azərbaycanda xarici sərmayəçilər üçün səmərəli vergi mühiti mövcuddur

## Qari Litman: «ABŞ şirkətlərini bu əlverişli biznes mühitindən faydalanmağa dəvət edirəm»

ABŞ-Azərbaycan Ticarət Palatası (AATP) tərəfindən Vaşinqtonda təşkil olunmuş konfransda ikitərəfli iqtisadi əlaqələrin inkişaf etdirilməsi, ABŞ sərmayəçilərinin ölkəmizdə sənaye sahələrinə investisiya yatırmaq imkanları, qarşılıqlı ticarətin həcminin artırılması və digər məsələlər müzakirə olunub. Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, ABŞ Cənubi Qafqaz regionunda Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır, Amerika şirkətləri ölkəmizin iqtisadiyyatının bir çox sahələrində fəal iştirak edir. ABŞ Ticarət Nazirliyinin dəstəyi ilə respublikamıza ticarət missiyalarının təşkil edilməsi ikitərəfli iqtisadi əlaqələrin və sərmayə qoyuluşlarının artmasında mühüm rol oynamaqdadır.

Qeyd olunub ki, indiyədək ABŞ-ın Azərbaycana yatırdığı investisiyanın 90%-i neft sektoruna yönəldilib: 10 milyard dollar həcmində sərmayənin 1 milyardı qeyri-neft sektorunun payına düşür. İndiki mərhələdə əməkdaşlığın əsas istiqamətləri isə xarici investisiyaların sənaye, İKT, turizm və digər sahələrə yönləndirilməsinin təşviqidir.

ABŞ-Azərbaycan Ticarət Palatasının vitse-prezidenti Qari Litman vurğulayıb ki, ikitərəfli əlaqələrin inkişafı üçün çox böyük potensial mövcuddur, hazırda Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı sahəsində əhatəli iqtisadi islahatlar aparılır. O, ABŞ-ın Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə və qeyri-neft sektorunda davam etdirilən islahatlara dəstək verməyə hazır olduğunu qeyd edib və ABŞ şirkətlərini Azərbaycandakı əlverişli biznes mühitindən faydalanmağa dəvət edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, ölkəmizdə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə təsdiq edilmiş strateji yol xəritələri azad biznesin inkişafı sahəsində yeni imkanlar yaradır. Dövlətin orta və uzunmüddətli iqtisadi hədəflərini özündə əks etdirən yol xəritələri iqtisadiyyatın sektorial inkişafının təmin olunmasını nəzərdə tutur. Başlıca prioritetlər bunlardan ibarətdir:

- büdcə-fiskal-monetar siyasətin təkmilləşdirilməsi;
- kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi;
- biznesin asanlaşdırılması və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması;
- səmərəli vergi sisteminin təşviqi;
- xarici investisiya strategiyasının həyata keçirilməsi;
- insan kapitalının inkişafı və əmək bazarının regional, qlobal və milli iqtisadi inkişaf tələbatına uyğunlaşdırılması;
- telekommunikasiya, sənaye, turizm, kənd təsərrüfatı sahələrinin milli məhsulda xüsusi çəkisinin artırılması;
- dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi;
- infrastrukturun daha da yaxşılaşdırılması.

Qeyd olunub ki, aparılan islahatlar Azərbaycanın davamlı iqtisadi inkişafı əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması və qlobal regional dəyər zəncirlərində özünəməxsus mövqeyinin gücləndirilməsi üzərindən sosial rifahı yaxşılaşdırmağa istiqamətlənəcək, ölkədə sağlam biznes mühitinin formalaşmasına, iqtisadi işgüzarlığın və iş adamlarının sərmayələrinin artmasına səbəb olacaq.

Konfransda çıxış edən Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») rəhbəri Nuran Kərimov qeyd edib ki, ABŞ-Azərbaycan əməkdaşlığının möhkəmlənməsində təmsil etdiyi qurumun mühüm rolu vardır. «AmCham» Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, o cümlədən bank, maliyyə, vergi, gömrük, biznes mühiti, qeyri-neft sektoru, investisiya ilə bağlı davamlı təhlillər aparır, hökumət qarşısında təkliflərlə çıxış edir: «Təqdirəlayiq haldır ki, dövlət-özəl sektor tərəfdaşlığının mühüm platformasına çevrilmiş bu əməkdaşlıq həyata keçirilən iqtisadi islahatlara öz töhfəsini verir, qanunvericiliyin təkmilləşdirilməsinə dəstək olur».

N. Kərimov ölkəyə xarici investisiyaların cəlb olunmasında, biznes imkanlarının artırılmasında həyata keçirilən vergi siyasətinin rolundan da bəhs edib. Bildirib ki, Azərbaycanda aparılan iqtisadi siyasətə uyğun olaraq, vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, kiçik və orta sahibkarlığın stimullaşdırılması, rəqabət mühitinin təmin edilməsi üçün əlavə tədbirlər görülüb. Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsinə və biznesin qeydiyyatının daha da asanlaşdırılmasına, sahibkarlığın fəaliyyətinin stimullaşdırılmasına xidmət edən vergi siyasəti və köklü islahatlar öz mühüm təsirlərini göstərməkdədir.

**E.CƏFƏRLİ**

## vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | **19** |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| **27** | 28 | 29 | 30 | **31** | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

27 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi:** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi:** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Onlayn sığorta inqilabi yenilikdir

**Artıq Azərbaycan vətəndaşları «Elektron hökumət» portalı üzərindən sığortanın ən sadə və ən rahat modeli olan onlayn sığortadan istifadə edə bilirlər. Portalın operatoru Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən «İcbari nəqliyyat sığortası» adlı xidmət elektronlaşdırılaraq, portala inteqrasiya edilib.**

AXA MBASK sığorta şirkətinin mütəxəssisi Şahin İsmayılovun sözlərinə görə, «İcbari sığorta haqqında» Qanunun qüvvəyə minməsi respublikamızda sığorta işinə və sığortaçılığa yeni vüsət verdi. Qısa zamanda qanunun müddəaları işlənib hazırlanaraq, tətbiqinə başlandı: «Respublikamızda fəaliyyət göstərən əksər sığorta şirkətləri, əsasən, «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası» məhsulu üzrə lisenziya aldı və bu məhsulun satışına başladı. Qanunun tətbiqi ilə əlaqədar yeni fəaliyyət sahəsi, «sığorta agenti» peşəsi gündəmə gəldi və bundan yararlanaraq bir çox insanlar öz kiçik bizneslərini inkişaf etdirməyə başladılar. Beləliklə, qanunun əsas töhfəsi yeni iş yerləri, yeni fəaliyyət növü, yeni vergi ödəyiciləri ilə ölkə iqtisadiyyatının inkişafı oldu».

Ş.İsmayılovun fikrincə, qanunun tətbiqi çox böyük rəqabət şəraitində start götürdüyünə görə sığorta şirkətləri arasında daha çox müştəri uğrunda əsl mübarizə başladı: «Tam səmimiyyətlə etiraf etmək lazımdır ki, həmin dövrlərdə sığorta bazarında bir çox qanunsuzluqlar, müştərilərin aldadılması, qanunsuz güzəştlər verilməsi, sığorta şirkətləri tərəfindən müştərilərin incidilməsi və ödənişlərdən imtina kimi hallar yayılmışdı və bu haqlı olaraq vətəndaşların narazılığına, sığorta şirkətlərinə etimadsızlığına gətirib çıxarırdı. Belə qanunsuzluqlara şərait yaradan digər səbəb isə vətəndaşların qanunu və öz hüquqlarını bilməməsi idi.

Artıq tam əminliklə demək olar ki, bu gün sığorta bazarında qayda-qanun əvvəlki illərə nisbətən daha ciddi qorunur və nəzarət altındadır. Müştərilərin aldadılması halları və ödənişlərdən imtina faktları minimuma enib. Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) bu sahədə apardığı sərt və güzəştsiz fəaliyyət öz bəhrəsini verir.

2016-cı il noyabrın 1-dən icbari sığortaların elektron variantda buraxılmasına keçid sığorta bazarında bir inqilab oldu. Elektron variant indiyə qədər mövcud olan bir çox qanunsuzluqların qarşısına sədd çəkir. MBNP-nin gərgin işi nəticəsində sığorta bazarında qanunsuzluqlara yol verən 100-dən artıq sığorta agenti öz lisenziyasından məhrum edildi, bir çoxlarının fəaliyyətinə müvəqqəti məhdudiyyətlər qoyuldu. Şirkətlərə qanuni fəaliyyət göstərməyəcəkləri təqdirdə, maliyyə sanksiyaları ilə üzləşəcəkləri barədə xəbərdarlıqlar edildi. Bütün bunlar artıq sığorta bazarında öz müsbət təsirini göstərməyə başlayıb».

Ş.İsmayılovun fikrincə, sığorta bazarında daha bir yenilik onlayn sığorta sisteminin işə düşməsi olub. Artıq bütün sığorta şirkətləri öz icbari və könüllü sığorta məhsullarını onlayn sistem vasitəsilə təqdim edirlər: «Elmi-texniki tərəqqinin daha bir üstünlüyünü sığorta şirkətləri öz fəaliyyətlərində geniş tətbiq edirlər. Klassik formadan fərqli olaraq onlayn sığorta təhlükəsizlik və rahatlığına görə bir sıra üstünlüklərə malikdir.

Statistikaya görə, britaniyalıların 70%-i, Fransada isə yerli əhalinin 50%-i onlayn sığortadan istifadə edir.

Onlayn sığortanın müsbət cəhətlərindən biri də burada vasitəçinin olmamasıdır. Yəni elektron sığorta broker və ya agentlərin iştirakı olmadan sığortaçı və müştəri arasında birbaşa əlaqə yaradılması deməkdir. Bu isə sığorta xərclərini azaldır. Hər hansı müştəri heç yerə getmədən internet üzərindən istədiyi sığorta şirkətinin istənilən məhsulunu onlayn qaydada əldə edə bilir.

Ancaq hər şey o qədər də sadə deyil. Onlayn sistem çox məhdud sayda müştəri kontingentini əhatə edir. Bu sistemdən istifadə etmək üçün vətəndaş bir sıra bilgilərə və sığorta məhsulları barədə məlumata malik olmalıdır. Bu gün əhalinin böyük əksəriyyəti sığorta məhsulları və bu məhsulların xarakteristikası barədə məlumatsızdır. Bu problemin həlli yalnız peşəkar sığorta agentlərinin fəaliyyəti nəticəsində mümkündür. Onlayn sistem isə bilavasitə sığorta agenti peşəsinin sıradan çıxardılmasına yönəlmiş vasitədir.

Sığorta şirkətləri və ümumilikdə sığorta işi ölkəmizin iqtisadiyyatında mühüm rol oynayır: «Məhz sığorta fəaliyyəti nəticəsində yüz milyonlarla manat pul vəsaiti dövriyyəyə qaytarılır, vətəndaşlarımızın əmlakı, sağlamlığı etibarlı təminata götürülür.

Nazirlər Kabinetinin 2016-cı ildə fəaliyyəti haqqında hesabatında göstərilir ki, Azərbaycanın sığorta sektorunun məcmu aktivləri 2016-cı il ərzində 1,9% artaraq bu il yanvarın 1-nə 1 milyard 31 milyon manat təşkil edib.

Hesabata əsasən, aktivlərin 44,4%-i, yaxud 457 milyon manatlıq hissəsi bank depozitlərində cəmlənib: «2016-cı ildə bağlanmış sığorta müqavilələri üzrə sığorta haqları əvvəlki illə müqayisədə 10%, yaxud 44 milyon manat artaraq 486 milyon manat olub. Sığorta haqlarının 66%-i və ya 319 milyon manatı könüllü, 34%-i, yaxud 167 milyon manatı isə icbari sığorta növlərinin payına düşür. Əvvəlki illə müqayisədə sığorta yığımları icbari sığorta növləri üzrə 3% (5 milyon manat), könüllü sığorta növləri üzrə isə 12% (39 milyon manat) artıb.

Ötən il həyat sığortası üzrə yığımlarda artım olub. Hesabat dövrünün sonuna həyat sığortası üzrə sığorta haqları əvvəlki illə müqayisədə 26% artaraq 146 milyon manat olub ki, bu da ümumi sığorta haqlarının 30%-i deməkdir. Qeyri-həyat sığortası üzrə haqlar isə 4% ,yaxud 13 milyon manat artaraq 340 milyon manata çatıb.

Hesabatda sığorta ödənişlərinin həcminin artdığı da göstərilib. Ötən il bu sahədə əsas artım həyat sığortası üzrə ödənişlərdə qeydə alınıb: «Dövr ərzində cəmi ödənişlər 31%, yaxud 57 milyon manat, o cümlədən həyat sığortası üzrə ödənişlər 82,7% və ya 43 milyon manat artıb. Sığorta ödənişlərinin 76%-i, yaxud 179 milyon manatı könüllü, 24%-i və ya 58 milyon manatı isə icbari sığorta növlərinin payına düşür.

**Fəxriyyə İKRAMQIZI**

## Azərbaycan Respublikasının Vergilər Nazirliyi ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

## ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka, bir qayda olaraq, iqtisadiyyat və idarəetmə, hüquqşünaslıq ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən edilmiş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar müsabiqədə iştiraka buraxılmırlar.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 27.02.2017-ci il saat 10:00-dan 12.03.2017-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. **Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın surəti və ali təhsil haqqında diplomun surəti mütləq qaydada elektron fayl şəklində əlavə olunmalıdır.** Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanı vasitəsilə məlumat verilir. Ərizə sistemə daxil olunduqdan beş gün ərzində onun müsabiqədə iştirak üçün qəbul edilib-edilməməsi müvafiq işçi qrup tərəfindən yoxlanılır, ərizə qəbul edilərsə vətəndaşa iş nömrəsi və imtahana buraxılış vərəqəsinin götürülmə tarixi, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat göndərilir.

Vətəndaşlar elektron ərizə formasını doldurmaqda çətinlik çəkdikdə və ya bu zaman hər hansı texniki problemlə rastlaşdıqda, habelə ərizə ilə müraciət etdikləri müddətdən beş gün keçdiyinə baxmayaraq onların elektron poçt ünvanına nazirlik tərəfindən heç bir məlumat göndərilmədikdə 012-403-81-35 və 012-403-88-04 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər 12.04.2017-ci il tarixdən 14.04.2017-ci il tarixdə saat 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 15.04.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 27.02.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**DİQQƏT!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara müsahibə mərhələsində üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.
Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində olan vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

beynəlxalq panoram

# Boş əmlak üçün vergi bütün Avstraliyada tətbiq edilə bilər

Hökumətdən verilən məlumata əsasən, hazırda Avstraliyanın Viktoriya ştatında tətbiq edilməsi nəzərdə tutulan boş saxlanılan əmlaka görə vergi ölkə səviyyəsində tətbiq oluna bilər. Xatırladaq ki, ştatın hakimiyyət dairələri investorları altı aydan artıq boş qalan evlər üçün vergi ödəməyə məcbur etmək istəyir. Verginin məbləği əmlakın dəyərinin 1%-i məbləğində olacaq. Məsələn, 500 min dollar dəyərində əmlak üçün illik vergi məbləği 5 min dollar təşkil edəcək.

Hökumət tərəfindən bildirilmişdir ki, boş saxlanılan evlərə vergi tətbiq etmək heç də büdcəni doldurmaq məqsədi daşımır, əsas niyyət mənzil icarəsi bazarındakı gərginliyi aradan qaldırmaqdır.

Son illərdə Avstraliyada xarici investorlar tərəfindən daşınmaz əmlak almağa güclü maraq oyanmışdır. Problem isə bundadır ki, böyük şəhərlərdə xarici sərmayəçilərin aldıqları mənzillər və evlər boş saxlanılır. Təkcə Melburn şəhərində boş mənzillərin sayı 20 mindən artıqdır. Ölkə hakimiyyəti ehtiyatlanır ki, gələcəkdə Avstraliya şəhərləri də Londonun gününə düşə bilər. İndi Londonda evlərin qiyməti «ceyran belində» olsa da, şəhərdə yaşayış olmayan kimsəsiz küçələr mövcuddur, həmin küçələrdəki xarici sərmayəçilərə satılmış evlərdə heç kim yaşamır. Bundan isə ilk növbədə alıcılardan və müştərilərdən məhrum olan kiçik və orta biznes zərər görür.

# Ukraynada vergi borclarının məbləği 3,8 dəfə artıb



Ölkənin Hesablama Palatasının hesabatına əsasən, vergi borcunun məbləğinin bu cür yüksək olması Ukraynada vergi borclarının idarə edilməsi üzrə mövcud sistemin səmərəsiz və qeyri-şəffaf olması ilə bağlıdır. Palatanın mövqeyinə görə, fiskal xidmətin bu istiqamət üzrə işinin məhsuldarlıq səviyyəsi çox aşağı olmuşdur.

Rəsmi məlumatlarda qeyd olunur ki, 2017-ci il fevralın 1-nə olan göstəricilərə əsasən, mənzil-kommunal xidmətlərinə görə ödənilmiş məbləğ ödənilməli olan vəsaitin 62,6%-ni təşkil etmişdir. «Vergi borcunun yaranması barədə məlumatlandırıcı tədbirlərin nəticəsi olmamışdır», - Palatanın hesabatında qeyd edilmişdir. 2014-2016-cı illəri əhatə edən son üç il ərzində dövlət büdcəsinə olan vergi borclarının məbləği 2017-ci ilin əvvəlində 59 milyard qrivnaya (2,18 milyard dollar) çatmışdır, bu isə 3,8 dəfə artım deməkdir. Borcların əsas məbləği əlavə dəyər vergisinin, müəssisələrin mənfəət vergisinin və icarə ödəmələrinin hesabına yaranmışdır.

Beləliklə, dövlət orqanları tərəfindən görülən tədbirlərin səmərəsizliyi ona gətirib çıxarmışdır ki, vergi borcu «ümidsiz borc» statusunda qalmır, son nəticədə silinir. 2014-2017-ci illərdə Ukraynada mənzillərin isidilməsi üçün tarif 11,3 dəfə, qaz üçün 9,5 dəfə, isti su təchizatı üçün 5,6 dəfə, elektrik təchizatı üçün isə 3,2 dəfə artırılmışdır.

Hesablama Palatasının qiymətləndirməsinə görə, vergi borclarının kəskin artmasının başlıca səbəbi vergi ödəyiciləri tərəfindən müstəqil şəkildə müəyyənləşdirilən pul ödənişləri öhdəliklərinin yerinə yetirilməməsidir. Son üç ildə belə ödəyicilərin sayı ikiqat artmışdır, bu isə ölkədə ödəmə intizamının və dövlət büdcəsinin doldurulmasının pisləşməsi risklərinin baş qaldırması deməkdir.

Son üç ildə büdcəyə borcu olan vergi ödəyicilərinin sayında da ikiqat artım olmuşdur.

# Kiçik müəssisələr üçün yeni vergi qaydaları

Yeni Zelandiyada vergi proseslərinin sadələşdirilməsini nəzərdə tutan yeni qanun layihəsi və qaydalar fevralın 21-də kral sanksiyası ilə təsdiqlənmişdir. Əsas yeniliklər kiçik müəssisələr üçün tələblərə əməletmə xərclərinin azaldılmasını, eləcə də vergilərlə bağlı məlumatların əldə olunmasına dair qaydaların sərtləşdirilməsini əhatə edir. Ölkənin Vergi Məcəlləsinə təsərrüfat fəaliyyətinin vergiyə cəlb olunması, informasiya mübadiləsi, həmçinin dəqiqləşdirici suallarla bağlı müddəalar daxil edilmişdir.

Qanun layihəsi yeni ödəniş sistemini təmin edəcək. Həmin sistem 2018-ci il aprelin 1-dək ilkin ödəmələr məqsədilə kiçik biznes üçün bir variant kimi müəyyənləşdirilmişdir.

Qanun layihəsinə əsasən, GST-yə, mənfəət vergisinə, eləcə də 2017-ci il aprelin 1-dən kredit borcları üzrə dövriyyə vəsaitlərinə tətbiq edilən aylıq 1 faizlik dəbbə ləğv edilir. Layihəyə həmçinin xarici trastlar üzrə məlumatların açıqlanması dair yeni tələblər nəzərə alınmaqla Yeni Zelandiyada beynəlxalq vergi qaydalarının daha da gücləndirilməsi və yenilənməsi tədbirləri də daxildir. Qanun layihəsi daxili siyahılar, eləcə də məlumatların açıqlanması ilə bağlı illik tələblər üzrə axtarışlar reyestrini əhatə edir.

Nəhayət, qanun layihəsində maliyyə müəssisələrindən məlumatların avtomatik mübadiləsi üçün OECD-nin ümumi standartlarına uyğunluğu tələb edən qaydalar da daxil edilmişdir.

# Avtomobillər üçün yığılan vergilərin məbləği açıqlandı

İranın Mərkəzi Bankı 20 dekabr 2016-cı ilədək dövrü əhatə edən son doqquz ay üzrə avtomobil sektorundan tutulan vergilərdən dövlət büdcəsinə daxil olan gəlirləri açıqlamışdır.

Bu dövr ərzində hökumət avtomobil idxalından 11,4 trilyon rial (300 milyon ABŞ dolları) gəlir götürmüşdür ki, bu da ümumi büdcənin 1,7%-ni təşkil edir. Keçən il İranda 2015-ci ilin göstəriciləri ilə müqayisədə bu sahədə 115% çox vergi yığılmışdı.

Yuxarıda göstərilmiş müddət ərzində avtomobillərin bir addan başqa ada rəsmiləşdirilməsi üçün yığılan məbləğ 113 milyon dollar olmuşdur. Avtomobillər üçün verilən dövlət nömrələri üçün tutulan verginin məbləği isə 179 milyon dollar təşkil etmişdir və bu göstərici əvvəlki illə müqayisədə 83,7% artıqdır.

# Bəyannamələrin təqdim olunmasının xüsusi qaydaları

ABŞ-ın Ölkədaxili Gəlirlər İdarəsi (IRS) əhalinin bir sıra kateqoriyalarına, o cümlədən işləyən və ya təqaüd alan xarici tələbələr və alim kimi Amerika vətənlaşlığına malik olmayanlara ABŞ-da vergi bəyannamələrini təqdim etmələri üçün onlara qarşı xüsusi tələblərin ola biləcəyini xatırlatmışdır.

IRS həmçinin vergi agentlərinə, məsələn, əməkhaqqı fondalarına, yaxud universitet mütəxəssislərinə müraciət etmişdir ki, onlar vergi ödəyicilərinə bəyannamə doldurarkən səhv etmələrinin qarşısını almaq məqsədilə kömək göstərməlidirlər. Vergi bəyannamələrində və ya vergilərin qaytarılması formalarında buraxılan səhvlər qaytarılma prosesinin uzanmasına səbəb olur. Ölkədaxili Gəlirlər Xidməti, adətən, ABŞ vətəndaşı olmayan, lakin bu ölkədə ticarət və ya bizneslə məşğul olan insanlardan bəyannamə təqdim etmələrini tələb edir. Xarici tələbələr, müəllimlər, təcrübəçilər və ya ABŞ-da müvəqqəti yaşayan qeyri-rezident əcnəbilər ticarət və ya bizneslə şəraitdən asılı olaraq məşğul olan şəxslər hesab edilirlər. Vergi tutulan gəlirlərə malik (məsələn, təqaüd alan); gəliri vergi müqaviləsinə uyğun olaraq qismən və ya tamamilə vergidən azad edilən; və/və ya Vergi Məcəlləsinə uyğun olaraq vergi tutulan hər hansı gəlirə malik qeyri-amerikalılardan vergi bəyannaməsi təqdim etmək tələb olunur.

## Xəbər lenti

**Nikaraqua** 1999-cu ildən Kolumbiyadan gətirilən mallara ərazi mübahisələrinə görə tətbiq edilən 35 faizlik vergini ləğv etməyi planlaşdırır. Prezident Daniel Orteqa Milli Asambleyaya bu barədə müraciət etmişdir. Qeyd edək ki, Nikaraqua eyni səbəbə görə Hondurasdan gətirilən mallara da vergi tətbiq etmiş, lakin həmin sanksiya 2003-cü ildə ləğv edilmişdi.

**Böyük Britaniya** hökuməti Avropa İttifaqından çıxandan sonra müəssisələrin keçid dövründə dəstəklənməsi məqsədilə əlavə dəyər vergisinin tutulması qaydaları ilə bağlı mövqeyini dəqiqləşdirməlidir. Bu barədə Britaniya Ticarət Palatası bəyanat yaymışdır.

**Beynəlxalq Valyuta Fondu** Yeni Zelandiya hökumətinə ölkənin iqtisadi vəziyyətinə dair illik qiymətləndirməni əhatə edən hesabatını təqdim etmişdir. Sənəddə vergi siyasəti ilə bağlı tövsiyələr də geniş yer tutur.

**OECD** Qlobal Forumun əlavə dəyər vergisinə həsr olunmuş dördüncü iclasının vaxtını və gündəliyini açıqlamışdır. 12-14 aprel tarixlərində keçiriləcək tədbirdə rəqəmsal qloballaşma dövründə vergi orqanları qarşısında duran siyasi və əməli-operativ vəzifələr, eləcə də bu problemlərin həlli üçün nəzərdə tutulan standart və mexanizmlərin effektiv tətbiqi müzakirə olunacaq.

# Omanda korporativ verginin dərəcəsi artırıldı

Ölkədə korporativ vergi dərəcəsinin 12%-dən 15%-ə qaldırılması barədə qərar qəbul edilmiş və bütün müəssisələrə vergi ödəmək öhdəliyi qoyulmuşdur. Əvvəllər bu vergini ödəmək üçün müəyyənləşdirilmiş 30 min Oman realı (77,9 min ABŞ dolları) məbləğində hədd korporativ verginin yalnız gəlirləri yüksək olan şirkətlərdən tutulmasını tələb edirdi. Lakin şirkətlərin kütləvi şəkildə vergidən yayındıqları barədə çoxsaylı faktlar aşkar ediləndən sonra hökumət bütün müəssisələri vergi öhdəliyinə cəlb etmək qərarına gəlmişdir.

Omanın maliyyə naziri bildirmişdir ki, ödənişlərin daha da şəffaflaşdırılması üçün vergi sisteminin sadələşdirilməsi layihəsinə hazırlıq görülür. Hazırda güzəştli vergi rejimi yalnız audit, vergi bəyannamələrinin hazırlanması və mühasibat uçotu sahəsində çalışan kiçik şirkətlərə aid edilir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Cəfəngiyyat, məntiqi olmayan; 2.Şahbuz rayonunda mineral su mənbəyi; 3.Müxtəlif sosial qruplarda (professional, yaş və s.) işlədilən yeni mənalı xüsusi sözlər; 4.Geoloji termin. İkinci kaynozoy dövrünün birinci epoxası; 5.Atla hərəkətə gətilən muzdlu nəqliyyat vasitəsi - Qərbi Avropada avtomobildən əvvəl taksi kimi işlədilib; 6.Musiqi termini. Musiqi alətində ifa zamanı bir səsdən digərinə yumşaq (pauzasız) keçid; 9.Kimyəvi element; 13.Mesopotamiya və Yaxın Şərqin iki əsas çayından biri olan Dəclənin qədim yunan dilində adı; 15.Döş qəfəsində cüt və yastı qövc şəkilli sümük; 16.Hərbi rütbə; 17.Niderlandda şəhər; 18.İncəsənət adamlarına verilən ümumi ad; 20.Avropa, Asiya və Amerikanın şimalında çətin keçilən iynəyarpaqlı meşələr zonası; 21.«Xəyyam» pyesinin müəllifi. **Soldan sağa:** 1.Yunan mütəfəkkiri. Milet məktəbinin nümayəndəsi; 5.Məməlilər sinfinin xortumlular dəstəsindən heyvan; 7.Qış Olimpiya idman növü; 8.Azərbaycan şairi, yazıçı, dramaturq, publisist, pedaqoq, ədəbiyyatşünas, tərcüməçinin adı; 10.Hindistanda şəhər; 11.Nazik bağırsağın iltihabı; 12.Buryatiyada ulus; 14.Portuqaliyada şəhər; 19.Karib dənizində ada; 21Azərbaycanın xalq şairinin adı; 22.Ərəbcə hörmət ifadəsini bildirən titul. «Lider» və ya «vali» mənalarını verir; 23.Benqal, Bihara və Orissanın 1740-1756-cı illərdə nəvvabı; 24.Musiqi notlarından biri; 25.Komik rolları ifa edən aktyor.



«Novruz sevinci». Vaqif Ucatay

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Uşkota; 2.İftixar *(Piriyev)*; 3.Ehkam; 4.Menuet; 5.Deizm; 6.«AzərSu»; 9.Akva; 13.Anne; 15.Variant; 16.Malaqa; 17.Durğan; 18.Salair; 20.Taksa; 21.Puatu. **Soldan sağa:** 1.Univermaq; 5.Dva; 7.Katakana; 8.Zirə; 10.Toxum; 11.Eskimos; 12.Orqan; 14.Halva; 19.Altıntu; 21.Parka; 22.Arka; 23.Ağcaqala; 24.«Ana»; 25.Konduktor.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# «Böyük dəbilqə»də böyük nailiyyət



Martın 12-də Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo üzrə «Böyük dəbilqə» turniri başa çatıb. Turnirdə 31 ölkədən 183 idmançı (110 kişi, 73 qadın) qalib adı uğrunda mübarizə aparıb.

Sonuncu yarış günündə Azərbaycan cüdoçuları ikisi gümüş, biri bürünc olmaqla üç medal əldə ediblər. Rio Olimpiadasının gümüş mükafatçısı Elmar Qasımov (100 kiloqram) turnirdəki görüşlərinə dörddəbir final mərhələsindən başlayıb. O, israilli Peter Paltçik ilə qarşılaşmada rəqibindən üstün olaraq yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə komanda yoldaşı Elxan Məmmədovu məğlub edən E.Qasımov yarışların finalına yüksəlib. Həlledici qarşılaşmada idmançımız Niderland cüdoçusu Mixael Korrelə «Qızıl xalla» məğlub olaraq turnirin gümüş medalına yiyələnib.

Turnirdə 90 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Məhəmmədəli Mehdiyev ilk qarşılaşmasına səkkizdəbir final mərhələsində başlayıb. Cüdoçumuz rəqibləri iranlı Vahid Nuriyə, Gürcüstan təmsilçisi Uşanqi Marcianiyə, komanda yoldaşı Əbdülhəqq Rəsulluya qalib gələrək finala yüksəlib. Finalda qazaxıstanlı rəqibi İslam Bozbayeva məğlub olan idmançımız turnirdə gümüş medalla kifayətlənib.

Digər idmançımız Elxan Məmmədov (100 kq) yarışda ilk qarşılaşmada estoniyalı Qriqori Minaşkinə qalib gəlib. İdmançımız final gedən yolda növbəti rəqibi, komanda yoldaşı Elmar Qasımovla görüşdən məğlub ayrılıb. Bürünc medal uğrunda mübarizədə digər Azərbaycan təmsilçisi Zelim Kotsoyevdən üstün olan E.Məmmədov yığmamıza bürünc medal qazandırıb.

Xatırladaq ki, turnirin ilk iki yarış günündə Azərbaycan cüdoçuları 1 qızıl, 3 bürünc medal qazanmışdı. Beləliklə, «Böyük dəbilqə» turnirini millimiz 1 qızıl, 2 gümüş və 4 bürünc, ümumilikdə yeddi medalla başa vuraraq komanda hesabında Niderlanddan sonra ikinci yeri tutub. Üçüncü yerə isə Yaponiya təmsilçiləri layiq görülüb.

# Pəhləvanlarımız İrandan yeddi medalla qayıtdılar

Ağır atletika üzrə Azərbaycan yığma komandası İranın Əhvaz şəhərində keçirilən ikinci beynəlxalq «Fəcr kubok»u yarışında 7 medal qazanıb.

Azərbaycan Ağır Atletika Federasiyasından bildiriblər ki, turnirdə Sənan Mirzəyev (85 kq) birdən qaldırma hərəkətində 141 kiloqramı ram edib. O, bu nəticə ilə üçüncü olub. Təkanla qaldırmada isə 167 kiloqramı başı üzərinə qaldıran S.Mirzəyev dördüncü yeri tutub. Ruslan Rzazadə (56 kq) birdən qaldırma hərəkətində 98 kiloqramı ram edərək gümüş medala sahib olub. Allahyar Abışov (62 kq) birdən qaldırmada 120 kiloqramı ram edib. O, bu göstərici ilə bütün rəqiblərini üstələyib. A.Abışov təkanla qaldırmada 142 kiloqramı başı üzərinə qaldıraraq üçüncü yeri tutub.

Beləliklə, Azərbaycan yığması «Fəcr kuboku» turnirini üç bürünc, həmçinin ayrı-ayrı hərəkətlərdə - birdən qaldırmada bir qızıl, bir gümüş və bir bürünc, təkanla qaldırmada isə bir bürünc medalla başa vurub. Millimiz topladığı 465 xal və qazandığı 7 medal sayəsində komanda hesabında dördüncü yeri tutub.




## Daha bir ulduz futbolçu karyerasına son verir



«Bavariya» klubunun ispaniyalı yarımmüdafiəçisi Xabi Alonso mövsümün sonunda karyerasını başa vuracağını bəyan edib. On səkkiz illik karyerası ərzində «Real Sosiedad», «Liverpul», «Real Madrid» və «Bavariya» kimi güclü klublarda forma geyən X.Alonso 2005-ci və 2014-cü illərdə UEFA Çempionlar Liqasının, 2005-ci ildə UEFA Super Kubokunun qalibi olub. O, 2012-ci ildə «Real»ın heyətində İspaniya, 2015-ci və 2016-cı illərdə «Bavariya» ilə Almaniya çempionu olub.
Xabi Alonso 114 dəfə yer aldığı İspaniya milli komandasının heyətində 2010-cu ildə dünya, 2008-ci və 2012-ci illərdə Avropa çempionu adını qazanıb.

mozaika

layihə

# Marsda şəhər salınacaq



Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Marsda yaşamağa yararlı olan şəhər salmağı planlaşdırır. Bununla bağlı «Mars 2117» layihəsi artıq təqdim edilib. Layihəyə əsasən, şəhər robotlar tərəfindən inşa ediləcək.

Beynəlxalq təşkilatların və şirkətlərin tərəfdaşlığı ilə 100 il müddətində həyata keçiriləcək bu layihəni BƏƏ-nin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Rəşid Əl Məktum sosial mediada elan edib. Onun sözlərinə görə, layihə biliklərin və elmi qabiliyyətlərin əldə olunmasına, universitetlərin araşdırma mərkəzlərinə çevrilməsinə və növbəti nəsillərdə liderlik stimulunun yaranmasına yönəlib. O deyib: «Digər planetlərdə yaşamaq insanların arzusudur. Məqsədimiz bu cür beynəlxalq layihələrə BƏƏ-nin rəhbərlik etməsidir».

incəsənət

# «Çiçək bağçası»



Avstriyanın modernist rəssamı Qustav Klimtin «Çiçək bağçası» əsəri Londonun «Sotheby's» satış evində təxminən 48 milyon funt sterlinqə alıcı tapıb və Avropada satılan üçüncü ən bahalı incəsənət əsəri olub.

«Sotheby's» satış evinin impressionizm və müasir incəsənət bölməsinin başçısı Helen Nyumanın sözlərinə görə, «Çiçək bağçası» Qustav Klimtin indiyə qədər hərraca çıxarılan ən möhtəşəm əsərlərindən biridir. «Rəssamın belə miqyaslı əsərlərinin əksəriyyəti dünyanın iri muzeylərində saxlanır və ötən onilliklərdə yalnız onlardan bir neçəsi hərraclarda görünüb», - deyə Nyuman əlavə edib.

mədəniyyət

# «Qarabağ kolleksiyası» Britaniyada

Yüzillik tarixi olan «Vogue» jurnalının Britaniya bölməsi moda, üslub və gələcək tendensiyaların carçısıdır. Britaniya bölməsinin internet səhifəsi diqqətini bu il London Moda Həftəsində təqdim olunacaq aparıcı kolleksiyalardan birinə - 25 yaşlı berlinli dizayner Leoni Mergenin «Qarabağ kolleksiyası»na cəmləyib.

«Qarabağ kolleksiyası»nın ilk təqdimatı ötən ayın ortalarında Berlində «Mercedes-Benz» Moda Həftəsi çərçivəsində və daha sonra yenə də Almaniya paytaxtında «L'Oreal Professionnel» brendinin hər il keçirilən ənənəvi tədbirində reallaşıb. London Moda Həftəsi adətən beynəlxalq moda elitasının «qaymaqları» olan 5000-dən artıq insanı cəlb edir. Tədbirdən sonra Avropa Azərbaycan Cəmiyyəti tərəfindən Londonun Şorditç rayonunda yerləşən Andaz Studiyasında keçirilən ziyafətdə 100-ə yaxın yüksək təbəqədən olan modasevərlər iştirak edib..

Leoni hazırkı kolleksiyasını Azərbaycanın zəngin mədəni irsindən ruhlanaraq ərsəyə gətirib. Bu kolleksiya Azərbaycanın Qarabağ regionunun ənənəvi geyimlərindən ilhamlanan silsilə parçalardan ibarətdir. Ansamblarda ölkənin məşhur parçalarını xatırladan bəzəklər həm kişi, həm də qadın geyimi görünüşünü yaradan yaxalar və qollu çuxalar təqdim olunub. Tarixi İpək Yolunda birləşdirici mərkəz və atçılıq sahəsində lider olmuş Azərbaycanın irsi Leoninin kolleksiyasında mühüm rol oynayır. Atçılığın təsiri ilə yaradılmış dəri aksessuarları və mürəkkəb ipək elementləri onun dizayn variasiyalarında aydın görünür.




texnologiya

# 20 dəqiqəyə tam hazır...




Çin telefon istehsalçıları dünya telefon bazarını təəccübləndirməkdə davam edirlər. Onların təqdim etdikləri dizayn və yeniliklər texnologiya nəhənglərinə sanki dərs verir. Telefon istehsalı ilə məşğul olan «Meizu» şirkəti sürətli enerji təminatı texnologiyası sahəsində mühüm işlər aparır. Belə ki, şirkət artıq «Super mcharge» sürətli doldurma texnologiyasını təqdim edib.
Cihaz bir «ağıllı» telefonu 20 dəqiqəyə tam enerji ilə təchiz edir. Texnologiya şirkətlərinin diqqət mərkəzində olan «Super mcharge»in hansı telefonlar üçün nəzərdə tutulduğu hələlik bəlli deyil. Cihazın bu ilin sonu və ya gələn ilin əvvəlində satışa çıxarılacağı gözlənilir. Şirkət rəhbərliyinin sözlərinə görə, hazırda «Super mcharge»in sınaq mərhələsi uğurla davam etdirilir.




ELAN

**«Vergilər» qəzetinə**
**2017-ci il üçün**
**abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


## Müdriklər deyib ki...

*«Bir vicdansız mühasib düşmən ordusundan da qorxuludur».*
*Napoleon Bonapart (1769–1821)*

